

Milli azadlıqdan şirin nemət yoxdur!

# Qərar verildi!

## Elan olunduğu andan qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz!



Bax səh. 2


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

28 iyun 2024-cü il, cümə
№ 112 (6698)
Qiyməti 60 qəpik


# "C-27J Spartan" Bakıda...

## Azərbaycan-İtaliya: Strateji əməkdaşlıqda yeni səhifə




Bax səh. 3

# Qarabağ və Şərqi Zəngəzurun "yaşıl dünya"sı...

Bax səh. 5

## Bölgənin ən güclü Ordusu!



Bax səh. 4

## Bir həll yolu olan məsələ...

Azərbaycanın son 4 ildə Cənubi Qafqazda formalaşdırdığı siyasi reallıqlar sülhə və əməkdaşlığa yol açdığı kimi, mühüm bir coğrafyada təhlükəsizliyin təmininə də töhfələr verir. Regionda yaranan sabitlik Mərkəzi Asiyadan başlayaraq üzü Kiçik Asiyaya doğru mühüm bir siyasi-iqtisadi, ticari zolaq müəyyən edib ki, bu da dövlətlərarası əməkdaşlıqların, inteqrasiyanın ən mühüm perspektivindən xəbər verir. İllərdir fərqli spektrlar üzrə inkişaf edən dövlətlərarası münasibətlər bu gün özünə yeni ştrixlər əlavə...

Bax səh. 4

## Natiqin "eşidilən" baxışları...




Bax səh. 3

## Dünya Bankı ilə Ölkə Tərəfdaşlıq Çərçivəsi...

Mərkəzi Bankda (MB) Dünya Bankının (DB) Cənubi Qafqaz üzrə regional direktoru Roland Praysın rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirilən görüşdə əməkdaşlıq çərçivəsində ölkəmizdə icra edilən və perspektivdə nəzərdə tutulan layihələr müzakirə olunub, yeni təşəbbüslər qiymətləndirilib. Görüş zamanı DB ilə Azərbaycan hökuməti arasında yeni Ölkə Tərəfdaşlıq Çərçivəsinin (ÖTÇ) hazırlıq prosesi məsələlərinə də toxunulub.

Azərbaycanın yeni inkişaf prioritetləri və çağırışlarını əks etdirən Ölkə Tərəfdaşlıq Çərçivəsi Dünya Bankı ilə ölkəmizin əməkdaşlığının müasir Yol Xəritəsidir və uzunmüddətli strateji prioritetlərinə və regional və qlobal sınaqların fonunda qısa, orta və uzunmüddətli ehtiyaclara əsaslanır. Sənədin əsas fundamental...

Bax səh. 5

## Şimal-Cənub Dəhlizi strateji əhəmiyyətini artırır

Şimal-Cənub Nəqliyyat Dəhlizi region ölkələri üçün öz strateji əhəmiyyətini daha da artırmaqdadır. Hindistandan və İran Körfəzi regionundan, yüklərin Rusiya, Qərbi Avropa, Baltikyanı və Skandinaviya ölkələrinə çatdırılmasına hesablanmış bu dəhlizin böyük bir coğrafi şəbəkəsi artıq xeyli müddətdir ki, öz hərəkətliliyi ilə diqqəti cəlb edir. 13 ölkə bu layihədə iştirakını təsdiqləməklə bu tranizt ailəsini daha da böyütməyə çalışır.

Qeyd edək ki, Şimal-Cənub dəhlizinin digər marşrutlarla müqayisədə əsas üstünlüyü tranzit məsafəsinin və tranzit vaxtının iki-üç dəfə az olmasıdır. Əgər dəniz yolu ilə daşıma İran körfəzi və Hind Okeanı, Süveyş kanalı, Aralıq Dənizi, Baltik Dənizindən keçərək...

Bax səh. 5

## Armenin "əsirləri"...

Ötən ilin dekabrından başlayan yeni, ikitərəfli təmaslar Ermənistan ilə Azərbaycan arasında süldh prosesini yeni bir məcraya yönəldib. Belə ki, məhz ikitərəfli təmasların nəticəsi olaraq bəzi ərazilərdə delimitasiya ilə bağlı işlər aparılıb, hətta sülhün yaxın vaxtda imzalanma perspektivindən bəhs açılıb. Bununla belə, sülh açıqlamaları ilə yanaşı Ermənistanın bəzi qeyri-müəyyən addımları və bəyanatları da diqqəti cəlb edir. Məsələn, sülh prosesinə sadiq olduğunu iddia edən İrəvan aktiv silahlanma prosesi aparır, eyni zamanda, sülh prosesinə mənfi təsir göstərəcək iddialar irəli sürür. Sülhün isə şərtləri bəllidir - hələ 2022-ci ildə Azərbaycan sülh müqaviləsinin imzalanması ilə bağlı şərtlərini irəli sürmüşdü. Davam edən proses də məhz bu şərtlər daxilində aparılır - orada Ermənistanın Azərbaycan torpaqlarına əsassız iddiadan əl çəkməsi...

Bax səh. 4

## Fransa da "çıxır" - Aİ dağılır...

"Köhnə qitə" yeni problemlər yaşamaqdadır. Özünün iqtisadi-siyasi hegemoniyasını tədricən itirməkdə olan Avropanın monolit "mənzərəsi" də dağılmaq üzrədir. Belə ki, Böyük Britaniyanın ayrılığının ağırlığını hələ də tam qaldıra bilməyən Avropa İttifaqı Fransanı da itirə bilər. İyunun 30-da və iyulun 7-də baş tutacaq seçkilərdə ortaya çıxacaq nəticə məhz bu istiqamətə yönəlib. Bununla bağlı Aİ-nin BREKSİT üzrə müzakirəçisi Mişel Barnye öz fikirlərini bölüşüb. O bildirib ki, Fransa prezidenti Emmanuel Makronun ölkə parlamentinin vaxtından əvvəl buraxılması və erkən seçkilərin keçirilməsi ilə bağlı qərarı Fransanın Avropa İttifaqından çıxmasına səbəb ola bilər. Qeyd edib ki, Makronun rəhbərlik etdiyi İntibah...

Bax səh. 7

## Boliviyada dövlət çevrilişinə cəhd...




Bax səh. 7

## BMT-nin Ali Komissarı, yoxsa erməni lobbisinin "əsiri?

Bax səh. 5

# Qarşımızda yeni məqsədlər və çağırışlar durur

## Azərbaycan Prezidenti Asiya İnkişaf Bankının prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Asiya İnkişaf Bankının prezidenti Masatsuqu Asakavanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Asiya İnkişaf Bankının prezidentinin regionlarımıza səfər etməsini ölkəmizdə gedən inkişaf prosesləri haqqında daha çox məlumatın əldə olunması və Azərbaycanın bu Bankla sıx əməkdaşlıq əlaqələrinin davam etdirilməsi üçün yaxşı imkan yaratdığını dedi.

Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının həm ölkəmiz, həm də regional əməkdaşlıq üçün önəm daşıyan sahələrinin inkişafına Bankın verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı xüsusilə Azərbaycan təbii qazının nəql edilməsi layihələrinə Avropa maliyyə institutları tərəfindən bəzi maliyyə gecikmələrinin olduğu zaman bu məsələdə Asiya İnkişaf Bankının birmənalı dəstəyini yüksək qiymətləndirdi. Azərbaycan Prezidenti bununla bağlı xatırladı ki, əvvəllər də dediyi kimi, ölkəmiz Avropanı qazla təmin etdiyi halda Avropa bankları maliyyələşməni təmin etməyə hazırlıq nümayiş etdirməyiblər, lakin Asiya İnkişaf Bankı bunu edib.

Prezident İlham Əliyev vurğuladı ki, ölkəmiz inkişaf etdikcə Xəzəryanı qonşu ölkələrlə və digər regionlarla güclü iqtisadi bağlantının yaradılması ilə əlaqədar qarşımızda yeni məqsədlər və çağırışlar durur. Dövlətimizin başçısı bu baxımdan Asiya İnkişaf Bankı ilə mövcud səmərəli əməkdaşlığın davam etdirilməsi məqsədilə yeni istiqamətlərin müəyyənləşdirilməsinin vacibliyini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Masatsuqu Asakava Azərbaycanla Asiya İnkişaf Bankı arasında tərəfdaşlığın 25-ci ildönümündə dövlətimizin başçısı ilə şəxsən görüşməkdən məmnunluğunu ifadə etdi.

Qonaq 2020-ci ildə COVID-19 pandemiyası dövründə videokonfrans formatında görüşü də məmnunluqla xatırladı.

O, dövlətimizin başçısını prezident seçkilərində qələbəsi münasibətilə təbrik edərək gələcəkdə də Azərbaycanın qarşısında duran strateji prioritetlərin reallaşması istiqamətində Asiya İnkişaf Bankı ilə ölkəmiz arasında əməkdaşlığın uğurla davam edəcəyinə ümidvarlığını bildirdi.

Söhbət zamanı yaşıl enerjinin istehsalı və ixracı məsələlərinə toxunuldu.

Dövlətimizin başçısı Azərbaycanda "yaşıl enerji" zonalarının yaradılması, o cümlədən işğaldan azad olunmuş ərazilərdə hidroelektrik stansiyaların tikilməsinin əhəmiyyətini qeyd etdi, həmin ərazilərimizdə artıq 270 meqavata qədər hidroenerji potensialının yaradıldığını bildirdi və bunun 500 meqavata qədər artırılması imkanlarının müzakirə edildiyini dedi.

Söhbət zamanı Şimal-Cənub dəmir yolu layihəsi ilə bağlı əməkdaşlıq məsələlərinə toxunuldu, Mərkəzi Asiya dövlətlərinin nəqliyyat sahəsində Azərbaycanla əlaqələrinin daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan COP29-un sədri olaraq...

## Dünya ölkələri arasında körpülərin, etimadın və həmrəyliyin qurulmasına öz töhfəsini verəcək

İlham Əliyev BMT-nin Baş katibinin müavini və Ətraf Mühit Proqramının icraçı direktorunu qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibinin müavini və BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru İnger Andersonu qəbul edib.

AZƏRTAC xəbər verir ki, İnger Anderson COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı. Bildirdi ki, ölkəmiz qlobal iqlim dəyişiklikləri məsələsinin müzakirəsi baxımından bütün dünyanın toplaşdığı bir mərkəzə çevriləcək. O vurğuladı ki, Azərbaycanda keçiriləcək COP29 çox vacibdir. Belə ki, burada iqlim dəyişikliyi ilə əlaqədar istər maliyyə, istər şəffaflıq hesabatlarının təqdim olunması və digər parametrlər nöqteyi-nəzərindən çox ciddi və önəmli qərarların qəbul edilməsi gözlənilir.

Azərbaycanın COP29-a ev sahibliyi etməsinin həqiqətən də ölkəmizin iqlim dəyişikliyi məsələsində liderliyinin təcəssümü və nümunəsi olduğunu deyən qonaq "Troyka" mexanizminin yaradılmasını çox vacib bir addım kimi dəyərləndirdi və bu müdrik qərara görə təbriklərini çatdırdı.

İnger Anderson əlavə etdi ki, dünya qazıntı yanacağından yeni yanacaq növünə doğru keçid prosesindədir. O dedi ki, buna görə də neft və qaz ixrac edən ölkələrin tənqid olunması cəhdləri ədalətli deyil və şəxsən bunu ədalətli hesab etmir. Qonaq vurğuladı ki, dünyada hər bir insanın bu cür enerji formasına ehtiyacı var.

Azərbaycanın "yaşıl iqlim" və "yaşıl keçid" nöqteyi-nəzərindən qəti siyasi iradə nümayiş etdirdiyini vurğulayan İnger Anderson metan öhdəliyi, dekarbonizasiya, neft və qaz sənayesinin modernləşdirilməsi istiqamətində ölkəmizdə atılan addımların önəmli olduğunu qeyd etdi.

Azərbaycanda milli səviyyədə ətraf mühit istiqamətində həyata keçirilən tədbirləri çox təqdir edərək buna görə təbriklərini çatdıran qonaq xüsusilə rəqəmsal əsaslı və "ağıllı kənd təsərrüfatı" konsepsiyasının inkişaf etdirilməsi, tullantıların idarə edilməsi, ətraf mühitin, Xəzər dənizinin ekoloji mühitinin və biomüxtəlifliyin qorunması və digər istiqamətlərdə ölkəmizdə həyata keçirilən tədbirləri, Azərbaycanda bu ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsini yüksək qiymətləndirdi.

İnger Anderson ölkəmizə səfəri çərçivəsində ətraf mühit sahəsində fəaliyyət göstərən gənclər təşkilatı - IDEA-nın ətraf mühit könüllüləri və gəncləri ilə görüşdüyünü, Şirvan milli qoruğunda olduğunu məmnunluqla qeyd etdi.

Rəhbərlik etdiyi qurumla Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsini bildirən qonaq 2026-cı il iyunun 5-də Dünya Ətraf Mühit Günü münasibətilə UNEP-in xətti ilə Azərbaycanda Dünya Ətraf Mühit Gününün keçiriləcəyini və bunun da qlobal miqyasda ətraf mühit baxımından ən vacib tədbirlərdən biri olduğunu dedi.

Xoş sözlərə görə minnətdarlıq edən Prezident İlham Əliyev UNEP ilə Azərbaycan arasında əməkdaşlıqdan, İnger Andersonun regionlarımıza səfər edərək oradakı ekomühitlə tanış olmasından və gənclərlə görüşündən məmnunluğunu bildirdi.

Azərbaycanın neft və qaz ixrac edən ölkə olmasına baxmayaraq, yaşıl enerjiyə keçid sahəsində planlarına toxunan dövlətimizin başçısı dedi ki, bu, siyasi iradəmizin olduğunu göstərir.

Prezident İlham Əliyev 200-ə yaxın dövlətin Azərbaycanın COP29-a sədrliyini yekdilliklə dəstəkləməsini ölkəmizə olan etimadın göstəricisi kimi dəyərləndirdi.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan COP29-un sədri olaraq dünya ölkələri arasında körpülərin, etimadın



və həmrəyliyin qurulmasına öz töhfəsini verəcək.

Prezident İlham Əliyev vurğuladı ki, ölkəmiz Qlobal Cənubu təmsil edir və 2019-2023-cü illərdə Qoşulmama Hərəkatının sədri olan və Avropa İttifaqı ölkələri ilə də yaxşı əlaqələrə malik Azərbaycan Qlobal Cənubla Qlobal Şimal arasında da iqlim dəyişikliyi mövzusunda həmrəyliyin gücləndirilməsi prosesinə öz töhfəsini verəcək.

Dövlətimizin başçısı qeyd etdi ki, ölkəmiz kiçik ada dövlətlərinin problemlərini prioritet istiqamətlərdən biri kimi müəyyən edib və "Troyka" çərçivəsində digər həmkarlarla bu məsələ ilə bağlı da yaxından işləyir.

Azərbaycanın özünün də iqlim dəyişikliyi problemlərindən əziyyət çəkdiyini deyən Prezident İlham Əliyev qeyd etdi ki, bir dövrdə Azərbaycanda quraqlıq halları, yağıntının miqdarının azalması baş verirdisə, son dövrlərdə yağıntının miqdarının artdığı müşahidə olunmaqdadır.

Söhbət zamanı tullantıların idarə olunması, Xəzər dənizinin ətraf mühit məsələləri, onun suyunun azalması və bu istiqamətdə daha sistemli işin, həmçinin əməkdaşlığın həyata keçirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Qərar verildi!

## Elan olunduğu andan qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz!

**Konstitusiya Məhkəməsinin Plenumu Milli Məclisin buraxılmasının Konstitusiyaya uyğunluğuna dair Prezidentin sorğusuna baxıb**

İyunun 27-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının və növbədənkənar seçkilərin təyin edilməsinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğuna dair sorğusuna baxılıb.



Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev iclası açaraq Plenumun tərkibini elan edib və müzakirəyə çıxarılan məsələ barədə məlumat verib.

İclasda sorğuverən tərəfin nümayəndələri qismində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin Hüquq siyasəti məsələləri sektorunun müdiri Rüstəm Qasımov və həmin şöbənin Qanunvericiliyin inkişafı sektorunun müdiri Araz Poladov, cavabverən tərəfin nümayəndəsi Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Fərid Hacıyev və ekspert qismində Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürov iştirak ediblər.

# AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun QƏRARI

***"Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair***

***27 iyun 2024-cü il Bakı şəhəri***

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev (məruzəçi-hakim), Rafael Qvaladze, Fikrət Məmmədov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə, məhkəmə katibi Fəraid Əliyevin, sorğuverən orqanın nümayəndələri Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin Hüquq siyasəti məsələləri sektorunun müdiri Rüstəm Qasımov və həmin şöbənin Qanunvericiliyin inkişafı sektorunun müdiri Araz Poladovun, cavabverən orqanın nümayəndəsi Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Fərid Hacıyevin, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürovun iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin sorğusu əsasında konstitusiya məhkəmə icraatı qaydasında "Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli Qərarının və bu Qərar əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının və növbədənkənar seçkilərin təyin edilməsinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxdı.

İş üzrə hakim Ceyhun Qaracayevin məruzəsini, tərəflərin nümayəndələrinin çıxışlarını və ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət edərək "Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli 1174-VIQR nömrəli Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının və növbədənkənar seçkilərin təyin edilməsinin Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə uyğunluğuna dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin mövqeyinin öyrənilməsini zəruri hesab etmişdir.

Sorğuda göstərilmişdir ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 105 səs çoxluğu ilə qəbul edilmiş "Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" 2024-cü il 21 iyun tarixli Qərara əsasən Azərbaycan Respublikasının Prezidentindən Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə uyğun olaraq buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi xahiş edilmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin Qərarında qeyd olunmuşdur ki, həm parlament seçkilərinin, həm də ölkədə keçiriləcək bir sıra mötəbər beynəlxalq tədbirlərin eyni zaman kəsiyinə təsadüf etməsi nəzərə alınaraq seçkilərin seçki qanunvericiliyinin tələblərinə uyğun keçirilməsinin və Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində nəzərdə tutulmuş vəzifələrinin tam icra edə bilməsinin, o cümlədən həmin dövrdə normayaratma fəaliyyətinin fasiləsizliyinin təmin edilməsi üçün növbədənkənar parlament seçkilərinin keçirilməsi zəruridir.

Azərbaycan Respublikası Prezidentinin sorğusunda qaldırılan məsələ ilə bağlı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitusiyasının bəzi normalarının nəzərdən keçirilməsini vacib hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının 81-ci maddəsinə görə, Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir.

Azərbaycan Respublikası Konstitusiyasının 82-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi 125 deputatdan ibarətdir.

Azərbaycan Respublikası Milli Məclisinin müəyyən etdiyi ümumi qaydaların, habelə həll etdiyi məsələlərin dairəsi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində təsbit edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə bu Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır.

Növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda Azərbaycan Respublikasının Milli Məclisinə növbəti seçkilər növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayının birinci bazar günü keçirilir.

Qeyd edilməlidir ki, hakimiyyətin bölünməsi prinsipinə əsasən ölkədə qanunvericilik fəaliyyətini həyata keçirən Azərbaycan Respublikasının Milli Məclisi xalq hakimiyyətinin təzahürü olmaqla ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə təşkil olunur.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair" 2019-cu il 4 dekabr tarixli Qərarında göstərmişdir ki, müasir demokratik cəmiyyət üçün parlamentin fəallığı böyük əhəmiyyət kəsb edir. Qabaqcıl və mütərəqqi hüquqi aktların qəbul edilməsi ölkədə ictimai münasibətlərin ədalət və hüququn aliliyi əsasında tənzimlənməsini təmin edir.

Məlum olduğu kimi, 2024-cü ilin noyabr ayında öz kütləviliyi və əhəmiyyəti ilə seçilən mötəbər beynəlxalq tədbirlərdən olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası Azərbaycan Respublikasında keçiriləcəkdir.

Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli Qərarında qeyd olunur ki, ölkədə gözlənilən beynəlxalq tədbirlər zamanı Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində nəzərdə tutulmuş vəzifələrini tam icra edə bilməsinin və həmin dövrdə normayaratma fəaliyyətinin fasiləsizliyinin təmin edilməsinin məqsədəmüvafiqliyi nəzərə alınaraq növbədənkənar parlament seçkilərinin keçirilməsi zəruridir.

Nəzərə alınmalıdır ki, seçkilər vətəndaşların iradəsini ifadə etməsinin əvəzsiz hüquqi vasitəsi kimi çıxış etməklə, seçkidə iştirakın əlçatanlığının təmin edilməsi, namizədlərin seçicilərlə təmasının, öz siyasi platformalarını təqdim etmələri məqsədilə zəruri və əlverişli şəraitin yaradılması baxımından dövlət üçün müvafiq öhdəlik yaradır.

Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin Preambulasında qeyd edilmişdir ki, Azərbaycan Respublikasının dövlət hakimiyyətinin əsasını Azərbaycan xalqının iradəsi təşkil edir. Azərbaycan xalqının iradəsi ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə azad və mütəmadi keçirilən seçkilərdə, habelə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə keçirilən ümumxalq səsverməsində - referendumda öz təzahürünü tapır. Azərbaycan dövləti Azərbaycan Respublikası vətəndaşlarının iradəsinin azad ifadə edilməsinə seçki hüququnun prinsip və normalarının müdafiə edilməsi yolu ilə təminat verir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun adı çəkilən 2019-cu il 4 dekabr tarixli Qərarında qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyası ilə ona verilmiş səlahiyyətlərinin həyata keçirilməsi ilə bağlı fəaliyyətini obyektiv qiymətləndirməklə öz işini davam etdirib-etdirməməsinin mümkünlüyünə dair qərar qəbul edə bilər.

Həmin Qərarda, həmçinin göstərilir ki, deputatların mütləq əksəriyyətinin parlamentin öz səlahiyyətlərini artıq həyata keçirə bilməməsi barədə qəti mövqeyinin formalaşması Azərbaycan Respublikası Milli Məclisinin buraxılması üçün Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsində nəzərdə tutulmuş əsası yaradır.

Hazırkı halda da Azərbaycan Respublikası Milli Məclisi deputatlarının mütləq əksəriyyətinin mövqeyi ondan ibarətdir ki, ölkədə beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı aparılacaq işlər Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin seçki qanunvericiliyinə uyğun keçirilməsinə və Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində göstərilmiş səlahiyyətlərinin tam icra edilməsinə maneə törədəcəkdir.

Beləliklə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu əvvəlki Qərarında ifadə etdiyi hüquqi mövqeyə əsasən hesab edir ki, "Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli Qərarı və bu Qərar əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə uyğundur.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu həmçinin qeyd edir ki, "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair" 2019-cu il 4 dekabr tarixli Qərarında ifadə etdiyi hüquqi mövqeyə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin yeni çağırışı fəaliyyətə başlayanadək müstəsna olaraq Azərbaycan Respublikası Konstitusiyasının 111 və 112-ci maddələrində, 95-ci maddəsinin I hissəsinin 16-cı və 17-ci bəndlərində nəzərdə tutulmuş səlahiyyətlərin, habelə beynəlxalq təşkilatlarda təmsilçilik funksiyalarının həyata keçirilməsi üçün VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin müvafiq səlahiyyətlərinin saxlanılması zəruridir.

Göstərilənlərə əsasən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

- "Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli 1174-VIQR nömrəli Qərarı və bu Qərar əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə uyğun hesab edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 52, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. "Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli 1174-VIQR nömrəli Qərarı və bu Qərar əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə uyğun hesab edilsin.
2. Qərar elan edildiyi andan qüvvəyə minir.
3. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.
4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

# “C-27J Spartan” Bakıda...

## Azərbaycan-İtaliya: Strateji əməkdaşlıqda yeni səhifə



Azərbaycanın Avropa İttifaqı (Aİ) məkanında strateji tərəfdaşlıq münasibətləri qurduğu ölkələrdən biri də İtaliyadır. İkitərəfli münasibətlər dövlətlərin, liderlərin güclü siyasi iradəsinə və cəmiyyətlərin xoş məramına əsaslanır. Avropada siyasi təsir imkanları getdikcə artan, dünyanın 7-ci böyük iqtisadiyyatı sayılan, “Böyük Yeddilik”də təmsil olunan İtaliyanın Azərbaycanla əlaqələrin əhatə dairəsinin genişləndirilməsinə xüsusi maraq göstərməsi ölkəmizin və onun Liderinin beynəlxalq səviyyədə artan nüfuzunun əyani göstəricisidir.

Elə bu günlərdə Prezident İlham Əliyev İtaliya Respublikasının müdafiə naziri Quido Krosettonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinə İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli də daxil idi. Qəbul zamanı ikitərəfli münasibətlərin müxtəlif istiqamətləri üzrə aktual müzakirələr aparılıb.

### Çoxtərəfli əməkdaşlığın təməlində dayanan güclü siyasi əlaqələr









Azərbaycanla İtaliya arasında getdikcə dərinləşən əməkdaşlıq çoxvektorlu səciyyə daşıyır ki, bunun da təməlində dayanan əsas amil güclü siyasi əlaqələrdir. Qəbulda buna xüsusi diqqət çəkən Prezident İlham Əliyev “Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq haqqında” Birgə Bəyannamənin bu əlaqələrin əsasını təşkil etdiyini deyib.

İtaliya Respublikası Azərbaycan Respublikasının müstəqilliyini 1 yanvar 1992-ci ildə tanıyıb, 8 may 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələr qurulub. 1997-ci ilin mart ayında İtaliyanın Azərbaycanda, 2003-cü ilin dekabr ayında isə Azərbaycanın İtaliyada səfirliyi təsis edilib.

Bu gün iki ölkə arasında siyasi dialoq kifayət qədər yüksək səviyyədədir. Hər iki ölkənin yüksəksəviyyəli rəsmiləri müntəzəm olaraq qarşılıqlı səfərlər edirlər. Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin fevral ayında İtaliyaya böyük uğurla baş tutan dövlət səfəri çərçivəsində iki ölkə arasında siyasi, iqtisadi, enerji, mədəniyyət, turizm, kənd təsərrüfatı, hərbi, nəqliyyat, təhsil, idman, kosmos, investisiya və ixracın təşviqi və digər sahələri əhatə edən 28 sənəd imzalanıb. Romada, həmçinin Azərbaycanın dövlət başçısı və İtaliya Nazirlər Şurasının Sədri “Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə”ni imzalayıblar və mübadilə ediblər.

Dövlətimizin başçısının 2022-ci ilin sentyabrında İtaliyaya baş tutan işgüzar səfərinin gündəliyi də kifayət qədər geniş olub. Səfər çərçivəsində Prezidentlər İlham Əliyev və Sercio Mattarella və digər yüksəksəviyyəli rəsmilər arasında aktual müzakirələr aparılıb. O cümlədən dövlətimizin başçısının iştirakı ilə Romada Azərbaycan Respublikasının səfirliyinin yeni binası açılıb, İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsi müəyyən edilib, fakültə və proqramların yaradılması ilə bağlı ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi keçirilib. Qəbulda Azərbaycan Prezidenti əməkdaşlığımızın digər sahələri də əhatə etdiyini deyərək, təhsil sahəsində əlaqələrə toxunub və qeyd edib ki, İtaliya-Azərbaycan Universiteti faktiki olaraq fəaliyyətə başlayıb, bu universitet üçün hazırda yeni müasir bina və təhsil kompleksi inşa edilir.

### 15 milyard dolları ötən ticarət dövriyyəsi



Avropa İttifaqına üzv olan ölkələr arasında İtaliya Azərbaycanın ən mühüm iqtisadi-ticarət tərəfdaşlarından biridir. İtaliyanın Cənubi Qafqaz ölkələri ilə ticarətinin 90 faizdən çoxu məhz Azərbaycanın payına düşür. Hazırda Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, xidmət və digər sahələrdə fəaliyyət göstərən 100-dən çox İtaliya şirkəti qeydiyyata alınıb. Ümumiyyətlə, italyan şirkətləri Azərbaycanın neft-qaz və qeyri-neft sektorunda ümumi dəyəri 10 milyard ABŞ dollarından yuxarı olan 300-dən artıq müxtəlif layihələrə qoşulublar. İtaliya şirkətləri Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpasında da yer alırlar. Qeyd edək ki, bəhs olunan ərazilərdə həyata keçirilən layihələrə Türkiyə şirkətlərindən sonra ikinci olaraq İtaliyanın “Ansaldo Energia” şirkəti qoşulub. Azərbaycanın isə İtaliya şirkətlərində və daşınmaz əmlaklarında investisiyaları təqribən 1,5 milyard dollar təşkil edir. Qəbulda Prezident İlham Əliyev Azərbaycan ilə İtaliyanın bir çox sahələrdə strateji tərəfdaş kimi fəaliyyət göstərdiyini deyərək, Avropa məkanında ticarət əlaqələrimizin böyük hissəsinin İtaliyanın payına düşdüyünü və ticarət dövriyyəmizin 15 milyard dolları ötdüyünü bildirib. Dövlətimizin başçısı bir çox İtaliya şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyini və bir sıra layihələrdə iştirakını məmnunluqla qeyd edib.

Şübhə yoxdur ki, perspektivdə iki ölkə arasında əlaqələrin əhatə dairəsi daha da genişlənəcək. Bunun üçün ölkəmizin noyabr ayında ev sahibliyi edəcəyi COP29 konfransı yeni imkanlar açacaq.Yeri gəlmişkən, dövlətimizin başçısı bu il Azərbaycanda keçiriləcək COP29-a hazırlıqla bağlı da ölkələrimizin sıx təmasda olduğunu vurğulayıb.

### Bütün Avropa üçün önəm daşıyan enerji dialoqu

İki ölkə arasındakı iqtisadi əməkdaşlıqda enerji sektorunun xüsusi çəkisi var. Azərbaycan İtaliyaya böyük həcmlərdə xam neft ixrac edir və indiyədək özünü etibarlı tərəfdaş kimi tanıdıb. Bütövlükdə, İtaliyada istehlak olunan neftin təxminən 17 faizi respublikamızın payına düşür. Bu ölkənin bütün dünyada tanınan şirkətləri Azərbaycanın moderatorluğu ilə həyata keçirilən enerji layihələrinin fəal iştirakçılarıdırlar. Məsələn, İtaliyanın ENİ qrupu Azərbaycanın enerji sektoruna 1995-ci ildən etibarən cəlb olunub. Bu şirkət Bakı-Tbilisi-Ceyhan neft boru kəməri konsorsiumunda 5 faiz paya sahibdir. “Saipem”, “ValvItalia”, “Renco”, “Bonatti”, “Enereco”, “Max Streicher”, “Honeywell SRL” və s. şirkətlərə isə Cənub Qaz Dəhlizinin tikintisi üzrə 6 milyard avrodan artıq dəyərə malik təchizat və xidmət layihələri həvalə edilib.

Eyni zamanda, SOCAR və onun törəmə şirkətləri ilə İtaliyanın mühəndislik, tikinti və texnologiyalar sahəsində aparıcı şirkətləri arasında bir sıra iri həcmli müqavilələr imzalanıb. Bu müqavilələrə uyğun olaraq İtaliya şirkətləri Azərbaycanda neft-kimya sahəsində müəssisələrin tikilməsi və yenidənqurulması sahəsində layihələndirmə, mühəndislik və tikinti işlərinin yerinə yetirilməsinə cəlb olunublar. Layihələrin bir çoxu tamamlanıb, digər layihələr üzrə isə əməkdaşlıq davam etdirilir. Prezident İlham Əliyev diqqətə çatdırıb ki, neft-qaz sahəsindəki əməkdaşlığımız təkcə ölkələrimiz üçün deyil, bütün Avropa məkanı üçün önəm daşıyır.

### Hərbi-texniki sahədə təməli qoyulan əməkdaşlıq

Strateji tərəfdaşlar olan Azərbaycanla İtaliya arasında hərbi sahədə əməkdaçlığa başlanılması da məmnunluq doğurur. Təsadüfi deyil ki, Prezident İlham Əliyev münasibətlərimizdə yeni səhifənin açıldığını, ölkələrimizin artıq hərbi-texniki sahədə də əməkdaşlığa başladığını xüsusi vurğulayıb.

Qeyd edək ki, iyunun 26-da Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə İtaliya Respublikasının “Leonardo” şirkətinin istehsalı olan “C-27J Spartan” tipli hərbi nəqliyyat təyyarəsi təqdim olunub.

Dövlətimizin başçısına təyyarənin taktiki-texniki xüsusiyyətləri, istismarı və digər göstəriciləri barədə məlumat verilib. Bildirilib ki, təyyarə mürəkkəb coğrafi relyef və əməliyyat şəraitində həm müdafiə, həm də mülki müdafiə tapşırıqlarını yerinə yetirməyə qadirdir.

“C-27J Spartan” tipli təyyarədən hərbi nəqliyyat, paraşütçülərin və yüklərin havadan atılması, eləcə də tibbi tapşırıqların yerinə yetirilməsi əməliyyatlarında istifadə olunacaq. Ekspertlər bildirirlər ki, təyyarənin taktiki-texniki xüsusiyyətlərinin üstünlükləri əməliyyatlarda, xilasetmə işlərində, mülki-müdafiə, həmçinin şəxsi heyətin daşınmasında böyük rol oynayacaq. “C-27J Spartan”nın çətin relyefli ərazilərdə, təkcə hava limanlarından deyil, eyni zamanda, bərkidilmiş torpaq üzərindən də qalxıb-eniş etməsi onun üstünlüklərindən sayılır.

*Mübariz ABDULLAYEV*

# Natiqin “eşidilən” baxışları...




Yazı sənəti ilə məşğul olanlar yaxşı bilir: ilk cümləni tapmaq böyük bir məqaləni yazmaqdan daha çətindir. Saatlardır onun haqqında yazacağım yazının da ilk cümləsini düşünürəm. Elə indicə qəfildən ondan bəhs edən “Oğul” filmindəki italyan fotoqrafın bir fikri düşdü yadıma: “Müharibənin insan simasıdır Natiq”...

Natiq Qasımovdan danışıram... Düz 32 ildir 21 yaşında qalan, düz 32 ildir 21 yaşından sonrakı aqibətindən doğru-dürüst məlumat ala bilmədiyimiz Natiqdən. Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımovdan...

Natiq Qasımov Birinci Qarabağ müharibəsində məğlub olaraq torpaqlarının iyirmi faizini itirmiş, on mindən çox şəhid vermiş, bir milyondan çox məcburi köçkünü olan Azərbaycanın qəhrəman siması, insan üzüdür.

Onun gəncliyi ölkəmizin ən ağır, ən məşəqqətli zamanlarına düşdü. İki illik hərbi xidmətdən qayıdan Natiq Vətənə dönər-dönməz onu od-alov içində, qan-qada qoynunda gördü. Qəlbi torpaq eşqiylə döyünən oğlan dözərdimi bu müsibətə? Dözmədi... Natiq də dözmədi... Birbaşa cəbhəyə yollandı.

Onun qəhrəmanlıq hekayəsi də elə bundan sonra başladı:

O, Ağdamda Yaqub Rzayevin (Qatır Məmməd) başçılığı altında “Qarabağ şahinləri” dəstəsində ermənilərə qarşı döyüşüb.

1992-ci ildə Xocalının Pirlər kəndi yaxınlığında yeddi əsgərimiz Alban kilsəsinin yerləşdiyi yüksəklik uğrunda ölüm-dirim savaşına qalxırlar. Onlara nəyin bahasına olursa-olsun son dərəcə əlverişli mövqedə yerləşən Alban məbədini qorumaq tapşırılmışdı. Orada ermənilərin mühasirəsinə düşən Natiq yoldaşlarını da itirdikdən sonra təkbaşına mübarizəni davam etdirir. O, təmtəkcə 5 gün gecə-gündüz vuruşaraq düşmənləri bu posta yaxın buraxmır. Onun təslim olmayacağını anlayan ermənilər Natiqi azərbaycanlı əsirlərlə şantaj etməyə başlayırlar. 22 nəfər Xocalı sakininin güllələnməsinə razı olmayan Natiq kilsənin üzərindəki Azərbaycan bayrağını özü ilə götürərək təslim olmaq üçün ermənilərə tərəf gedir. Həmin vaxtdan sonra Natiq Qasımov barəsində heç bir məlumat verilməyib.

Natiq Qasımovun hazırda yayılan fotosu əsir düşərkən italyan fotoqraf tərəfindən çəkilib və “Oqonyok” jurnalında o vaxt dərc edilib.

Nə yazıq ki, mənfur düşmən başqa bir neçə belə əsir kimi, Natiq Qasımovun da əsir və ya girov götürülməsini illərlə danıb, onun sonrakı aqibəti haqqında məlumat verməkdən boyun qaçırıb.

Əfsanə deyil, nağı deyil, rəvayət deyil. Ən yaxın keçmişimizin, ən yeni tariximizin qəhrəmanlıq, ucalıq rəmzidir Natiq. Bu gənc oğlan təkcə Vətənə sevgisi, bayrağa məhəbbəti ilə deyil, həm də insanpərvərliyi ilə böyükdür, ölümsüzdür. Çünki Natiq beş gün qorxmadan-çəkinmədən qarşı çıxdığı düşmənə sonsuz dəyanətlə qoruduğu postunu özünün yorğunluqdan, aclıqdan susuzluqdan təpərsiz qalmış canı üçün yox, yağı əlində əsir olan həmvətənləri- günahsız körpələri, qadın və uşaqları üçün təhvil verdi. Onun son dayanacağı olan məbəd komandirinin tapşırığı idi və Natiq komandirinin tapşırığına əməl edə bilməməkdənsə, ölməyi üstün tuturdu. Ancaq son anda öz canından artıq bildiyi tapşırığı başqa həmvətənlərinin canı üçün fəda etməli oldu. Bu, mübariz qəlbin həm də humanistliyi, kövrəkliyi idi...

Şübhəsiz, Birinci Qarabağ müharibəsində yenilməyinə baxmayaraq, ölkəmizin tarixinin məhz həmin müharibə səhifəsində neçə-neçə belə igidlərin, qəhrəmanların adı var. Natiqi fotoqraf əbədiləşdirdisə, onları vətən torpağı əbədi yaşadır.

Düz 30 ildir Natiq son fotosundakı gözlərlə baxır gözlərimizin içinə: məğrur, yenilməz, ədalət sorağı ilə. Düz 30 ildir min bir sual yağan o gözlərə baxa bilmirik. O baxışların altında əzilirdik.

Ta ki, 2020-ci ilə qədər... Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, müzəffər ordumuzun rəşadəti, xalqımızın birliyi ilə Vətən müharibəsində qazandığımız böyük Zəfər Natiq və onun kimi qəhrəmanlarımız qarşısında yerdən qalxan başımız, kölgəsi çəkilən gözlərimiz oldu. Onların canını qurban verdikləri torpaqlarda onların qanına bulanmış mundar ayaqlar gəzmir artıq. Amma bu, hələ son deyildi. Biz onlara suverenliyimizi borclu idik. 2023-cü il o borcun qaytarıldığı il oldu.

Biz torpaqlarımızı qaytardıq, amma düşmənlə üz-üzə sorğu masasında başıdik oturan Natiqin son fotosundakı baxışlar yenə də danışırdı, ədalət sorağında idi. Bu ədalət təkcə özünün nakam, nabələd taleyinə yox, bütövlükdə Birinci Qarabağ müharibəsinə idi. O baxışlar “biz məğlub deyilik, biz torpağımızı sahibsiz buraxmadıq” deyirdi. O baxışlar “biz vətənimizi darda qoymadıq” deyə hayqırırdı.

Nəhayət, o baxışların da “səsi duyuldu”. Özü də Vətənin qalib sərkərdəsi, Qarabağın xilaskarı tərəfindən... Cənab Prezident İlham Əliyev bu günlərdə Natiq Qasımova “Azərbaycan Respublikasının Milli Qəhrəmanı” adını verdi. Natiqin hekayəsində bu ad təkcə müharibədə qəhrəmanlıq göstərmiş birinə verilən titul deyil, ümumilikdə Birinci Qarabağ müharibəsində də Azərbaycanın qələbəsidir. Ali Baş Komandan yalnız Qarabağı azad etməklə qalmadı, bu addımları ilə Birinci Qarabağ müharibəsinin faktiki məğlub tərəfi olmuş, ya da ən doğru ifadə ilə, xarici qüvvələr tərəfindən məğlub etdirilmiş Azərbaycana, o müharibənin iştirakçılarına, şəhid, qazi və itkinlərinə, məcburi köçkünlərinə haqqı-ədaləti bəxş etmiş oldu. O göstərdi ki, Vətən müharibəsində bir yumruq kimi birləşən və heç nədən qorxmadan döyüşə atılaraq qələbə qazanan Azərbaycan xalqı 30 il öncə də eyni şücaətə, eyni dəyanətə malik idi. Əgər o müharibədə böyük Ermənistan xülyası ilə yaşayan və Bakıya qədər gəlməyi planlaşdıran düşmən buna nail ola bilməmiş, 20 faiz torpaqlarla kifayətlənməli olmuşdusa, yenə də Natiq Qasımov və onun kimi qəhrəman övladlarımız sayəsindədir. İllərdir xalqının qəhrəmanı olan Natiq Qasımova “Milli Qəhrəman” adının verilməsi 2023-cü ilin sentyabrında suverenliyini bərpa etmiş Azərbaycanın Qarabağ məsələsində şəksiz qələbəsinin təntənəsi oldu!

İndiyə qədər Natiqin aqibəti tam təsdiqlənməsə də bu qərarda qeyd olunur ki, ona “Milli Qəhrəman” adı “ölümündən sonra” verilib. Ölüm? Bu, sadəcə, rəsmi sənədlərin üsula uyğun qeydləridir, şübhəsiz. Qəhrəmanlar ölərmi ki?!

21 yaşlı Natiqdən cəmi 1 yaş böyük 22 yaşlı başqa bir Milli Qəhrəman haqqında da eyni sözlər yazılmışdı zamanında: “ölümündən sonra”. Bu, atəşkəs zamanı düşmən tərəfinə keçərək sələfi Natiq kimi düşmənin bağrına od basan, onda “bir qoşun hücuma keçib” xofunu yaradan və son anına kimi döyüşərək onlarla düşmən əsgərini cəhənnəmə varid edən Mübariz İbrahimovdur. O da ölümündən sonra Milli Qəhrəman adına layiq görülmüşdü. Amma tarix sübut etdi ki, Natiq kimi, Mübariz kimi qəhrəmanlar ölmürlər. Onlar həm xalqının, həm də dövlətinin əbədiyaşar qəhrəmanlarıdır!

Ucalığınız mübarək, Milli Qəhrəmanlar!!!

*Şahanə MÜŞFİQ*

# Bölgənin ən güclü Ordusu!

## Rəsmi İrəvan “çəhrayı eynəyini” çıxarmalıdır...

2020-ci ildə baş tutmuş Vətən müharibəsi və 2023-cü ildə reallaşan antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olundu. Bu fakt həm də tarixi və beynəlxalq ədalətin bərpası yolunda mühüm bir addım kimi yadda qaldı. Vurğulanmalıdır ki, ötən 30 illik işğal dövründə Azərbaycan hər zaman problemin sülh müstəvisində, ərazi bütövlüyümüz çərçivəsində həllini tələb edirdi. Dövlətimiz hər zaman bəyan edirdi ki, tarixə qovuşmuş münaqişənin Azərbaycanın ərazi bütövlüyündən kənar həlli yoxdur, ola da bilməz.

### Qriqoryanın növbəti yalanı...

Bəli, Azərbaycan bu dövr ərzində daima Ermənistanın sülh mövqeyinə gəlməsi üçün çağırışlar edib. Rəsmi İrəvan isə işğal etdiyi torpaqları azad etmək yerinə, yeni əraziləri tutmaq, qeyri-real bəyanatlar səsləndirməklə məşğul idi. Nəticədə Azərbaycan dövləti bəyan etdiyi kimi, əbədi olaraq işğal faktı ilə barışmayacağını ortaya qoydu -Azərbaycan torpaqlarının azad edilməsi ilə bağlı BMT TŞ-nin 4 qətnaməsinin icrası 30 ildən sonra ordumuz tərəfindən yerinə yetirildi. Bunun sülh şəraitində deyil, müharibə yolu ilə reallaşması isə Ermənəistanın beynəlxalq hüquqa riayət etməməsinin nəticəsində baş verdi. Eyni zamanda, Azərbaycan bu prosesi öz gücünə - Silahlı Qüvvələrinin qətiyyəti, xalq-dövlət birliyinin təminatı ilə reallaşdırdı. İllərdir ki, hərbi gücünü, qüdrətini artıran, yeni, müasir silahlarla arsenalını zənginləşdirən, hərbi kadr potensialını gücləndirən Azərbaycanın Ordusunun bu müharibədə göstərdiyi rəşadət bütün dünya tərəfindən təqdir və etiraf edilir.

Təəssüfləndirici haldır ki, Ermənistanın bəzi dairələri ölkəmizin əldə etdiyi bu parlaq qələbəyə kölgə salmaq, sülh prosesinin inkişafına mane olmaq üçün yeni “manevrlər” əl atırlar. 2020-ci ildə Azərbaycanın müharibəni dayandırması, kapitulyasiya imzalamaq üçün bütün ölkələrə yalvaran, hətta Kremlə dəfələrlə zənglər vuraraq Rusiyadan vasitəçi olmasını xahiş edən Ermənistan yenə də siyasi təhriflərə yol verir, bu ölkənin bəzi dövlət adamları əsassız sərsəmləmələrlə yadda qalırlar. Məsələn, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan jurnalistlərə açıqlamasında qeyri-real fikirlər səsləndirərək özünün uydurmalarını “bölüşüb”. Sitat: “Rusiya gəlib Qarabağı bizim əlimizdən alıb Azərbaycana qaytardı. Bu, Rusiyadan tamamilə asılı olduğumuz vaxt baş verdi”.



### Azərbaycanın hərbi gücü, Ermənistanın 11 minə yaxın fərarisi...

Vurğulandığı kimi, Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir hərbi strukturu sayılır. Ümumiyyətlə, yüksək döyüş hazırlığına malik olan Azərbaycan Ordusu qarşıya qoyulan istənilən vəzifəni icra etmək gücündədir - bu faktdır ki, 2020-ci ildə Ermənistan təslimçilik bəyanatına imza atan dövrdə bütün hərbi gücü darmadağın edilmişdi. Erməni ordusunda müharibə dövründə fərariliyin kütləvi hal alması faktı baş nazir Nikol Paşinyan, digər siyasi rəhbərlər tərəfindən etiraf olunub. Bildirilib ki, 2020-ci ildə 44 günlük müharibədə Ermənistan Ordusunun təxminən 25%-i - 11 min nəfərə yaxını fərarilik edib, döyüşlərdən qaçıb. Hətta Ermənistanın baş naziri Paşinyanın könüllü cəbhəyə yollanmaq üçün erməni xalqına müraciətləri, çağırışları da cəmiyyətdə heç bir reaksiya yaratmamışdı - erməni gəncləri Paşinyanın çağırışlarını cavabsız buraxmış, zorla ordu sıralarına cəlb edilənlər isə çıxış yolunu qaçmaqda görmüşdülər. 2023-cü ildə isə cəmisi 23 saat ərzində separatçı rejim tərk-silah edilmiş, xuntaya son qoyulmuş, milyardlarla qiyməti olan hərbi silah-sursat müsadirə edilmişdi. Yəni Azərbaycanın hərbi gücünün Ermənistan ilə müqayisəsi belə yersizdir - Qriqoryanın fikirləri isə şər-böhtan, növbəti əsassız erməni yalanından başqa bir şey deyil.



### Rusiyadan reaksiyalar...

Qriqoryanın fikirlərinə Rusiya tərəfindən də maraqlı reaksiyalar verilib. Belə ki, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Qriqoryanın “bəyanatını” şərh edərkən bildirib ki, “elə şeylər var ki, onları tibbi təhsil olmadan şərh etmək olmaz”.

“Doğrudanmı o, bunu deyib? Bu, hansı ildə baş verib? Bu adamın adı nədir? Qarşı tərəfdən uydurulmuş tezisi özlərinə qaytarmaq istərdim: bəlkə də söhbət hansısa katibədən gedir. Elə şeylər var ki, onları tibbi təhsil olmadan şərh etmək olmaz. Bu sahədə heç bir bacarıq tətbiq etmək imkanım yoxdur. Ancaq buna başqa cür yanaşmaq mümkün deyil”, - deyə Zaxarova bildirib.

Zaxarova əlavə edib ki, Qriqoryan Qarabağın itirilməsinə görə Rusiyanı günahlandıraraq öz xalqını aşağılayıb.

Rusiya Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin rəhbəri Qriqori Karasin də bildirib ki, Qarabağı Azərbaycana Rusiya “verməyib”, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın dedikləri tamamilə yalandır. “Erməni siyasətçilərinin, o cümlədən ali rəhbərliyin səs yazılarına və çıxışlarına istinad etmək lazımdır. Bu sualların cavabları artıq orada mövcuddur. O qeydlər məlumdur, qoy oxusun”, - deyə Karasin bildirib.

Hətta ermənipərəst mövqeyi ilə tanınan Rusiya Dövlət Dumasının MDB işləri üzrə komitəsi sədrinin birinci müavini Konstantin Zatulin də Qriqoryanın “Rusiya Qarabağı Azərbaycana qaytardı” açıqlamasını açıq-aşkar yalan adlandırıb. “Qriqoryan onu işə götürən Nikol Paşinyandan da böyük rusofobdur. Bir sıra hallarda rəhbərinin ağlına gələni Qriqoryan öz dili ilə açıq ifadə edir. Bu halda söhbət açıq-aşkar yalandan gedir. Qarabağ məsələsi Paşinyan üçün lazımsız olmaqla yanaşı, həm də daxildə zərərlidir. Ona görə də, Nikol qərbli dostlarının yolu ilə getməyə üstünlük verib”, - deyə Zatulin vurğulayıb.

*S.İSMAYILZADƏ*

# Qriqoryan unudur ki,Türkiyə-Azərbaycan qardaşlığı vahid güc deməkdir

## Növbəti erməni məkri...

### Bir həll yolu olan məsələ...

Azərbaycanın son 4 ildə Cənubi Qafqazda formalaşdırdığı siyasi reallıqlar sülhə və əməkdaşlığa yol açdığı kimi, mühüm bir coğrafiyada təhlükəsizliyin təmininə də töhfələr verir. Regionda yaranan sabitlik Mərkəzi Asiyadan başlayaraq üzü Kiçik Asiyaya doğru mühüm bir siyasi-iqtisadi, ticari zolaq müəyyən edib ki, bu da dövlətlərarası əməkdaşlıqların, inteqrasiyanın ən mühüm perspektivindən xəbər verir. İllərdir fərqli spektrlər üzrə inkişaf edən dövlətlərarası münasibətlər bu gün özünə yeni ştrixlər əlavə etməkdədir. Bu mənzərənin daha da aydınlaşması, sülh situasiyasının daha dayanıqlı hal alması üçün isə Ermənistanın siyasi iradə nümayiş etdirməsi gərəkir - İrəvan uzun illərdən sonra, müstəqillik qazandığı dövrdən bəri ilk dəfə olaraq öz qonşuları ilə münasibətlərinin normallaşması istiqamətində addımlar atmalıdırlar. Bəli, burada söhbət yalnız Azərbaycandan getmir - Ermənistan həm də heç bir diplomatik əlaqəsi olmadığı qardaş Türkiyə ilə münasibətlərini normallaşdırmalıdır. Xatırlatmaq yerinə düşər ki, rəsmi Ankara 30 ildən yuxarıdır ki, rəsmi İrəvan ilə heç bir siyasi-iqtisadi əlaqəyə malik deyil. Bunun əsas səbəbi isə Ermənistanın apardığı işğalçı siyasət, Türkiyə və Azərbaycana qarşı əsassız ərazi iddiaları və qondarma “soyqırımı” nağıllarıdır.

### Ermənistan-Türkiyə münasibətlərinin tənzimlənməsi prosesi...

Yeni dövrdə Ermənistanın bölgəsəl xəritənin bir parçasına çevrilməsi, regional inkişafın komponenti kimi çıxış etməsi üçün bu şərt mütləq xarakter daşıyır. Qeyd edək ki, Azərbaycanla yanaşı, Ermənistan Türkiyə ilə də münasibətlərin normallaşması üçün bir proses inkişaf etdirməkdədir. 2021-ci ilin sonunda həm Türkiyə, həm də Ermənistan qarşılıqlı olaraq danışıqlar aparması üçün xüsusi nümayəndə təyin edib - bu, Türkiyə tərəfdən diplomat Sərdar Kılıc, Ermənistan tərəfindən isə Ruben Rubinyana tapşırılıb. Bu günə qədər səfir Sərdar Kılıç və Ermənistan parlamentinin sədr müavini Ruben Rubinyan arasında bir neçə dəfə görüş də baş tutub. Nümayəndələr arasındakı görüşlərin birincisi 2022-ci ilin yanvarın 14-də Moskvada, digər üçü isə həmin ilin fevralın 24-də, mayın 3-də və iyulun 1-də Avsriyanın paytaxtı Vyanada reallaşıb. Bu görüşlərdə tərəflər, Türkiyə ilə Ermənistan arasında quru sərhədinin iki ölkəyə səfər edən üçüncü ölkə vətəndaşlarının keçməsi üçün ən qısa zamanda açılması barədə razılığa da gəlmişdilər və bununla bağlı lazımi prosesin başlanmasına belə qərar verilmişdi.

Təbii ki, istər münasibətlərin normallaşması, istərsə də hansısa razılıqların əldə olunması prosesi Azərbaycanla qarşılıqlı məsləhətləşmələr fonunda aparılır. Çünki Türkiyə birmənalı şəkildə bu prosesdə Azərbaycanın maraqları çərçivəsində hərəkət edəcəyini hər zaman açıqlayıb. İstər Türkiyənin keçmiş XİN rəhbəri Mövlud Çavuşoğlu, istərsə də hazırki nazir Hakan Fidan hər zaman bildirib ki, Azərbaycanın Zəfərinin yaratdığı münbit şəraitdən davamlı sülh üçün istifadə edilir. Türkiyə rəsmiləri xüsusi olaraq qeyd edirlər ki, Türkiyə ilə Ermənistan arasındakı danışıqların nəticəsi məhz Azərbaycanla bağlanan sülhdən asılıdır. Bu isə həm də Ermənistana bir xatırlatmadır. Bu fikirlər, həm də prosesin qarşılıqlı məlumatlandırma çərçivəsində inkişaf etdiyinin təsdiqidir. Türkiyə hər zaman bildirib ki, Ermənistan təxribatlara son qoyacağı, irəli sürülən şərtlərə əməl edəcəyi təqdirdə sərhədləri açmaqda maraqlıdır.






### Qriqoryanın növbəti sabotajı...

Amma deyəsən, Ermənistan özünün qeyri-konstruktiv mövqeyindən əl çəkmək, prosesin şantaj etməkdən çəkinmək niyyətində deyil. Belə olmasaydı, hər iki prosesin paralel və uğurlu inkişaf etməsi rəsmi İrəvan üçün prioritet xarakter daşıyardı. Halbuki, rəsmi İrəvan yenidən məkrli niyyətə əl atır - onlar bu iki prosesə ayrı-ayrı baxdıqlarını açıqlamaqla, guya iki dövlətin məsələ ilə bağlı “fərqli baxışlarının” olduğunu deməyə “çalışırlar.

Məsələn, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bildirib ki, rəsmi İrəvan Ermənistan-Azərbaycan və Ermənistan-Türkiyə proseslərinə ayrı və bir-birindən fərqli baxır. O, bu barədə Ermənistan və Azərbaycan razılığa gəlməyincə Türkiyənin Ermənistanla münasibətləri tənzimləməyəcəyi nöqteyi-nəzərindən danışıb. “Biz bu prosesləri ayrıca nəzərdən keçiririk. Ermənistan-Azərbaycan, Ermənistan-Türkiyə münasibətləri var. Biz bu sahələrdə müxtəlif yollarla işləyirik. Bəli, bir növ münasibət mümkündür. Amma bizim yanaşmamız belədir: həll etmək üçün iki mürəkkəb düstur varsa və siz bu mürəkkəb düsturları birləşdirsəniz, həll daha da mürəkkəbləşəcək. Beləliklə, onları ayırmaq lazımdır. Bizim anlayışımız və yanaşmamız ondan ibarətdir ki, iki fərqli istiqamətimiz var”, - Qriqoryan bildirib.

Qriqoryan bildirib ki, Ermənistan Türkiyədən irəliləmək üçün hərəkət gözləyir. Təhlükəsizlik Şurası katibinin sözlərinə görə, bu proses üçün müəyyən edilmiş müddət yoxdur.

Göründüyü kimi, Qriqoryanın açıqlaması sülh prosesinin yenidən manipulyasiya edilməsi mənzərəsini yaradır. Vurğulanmalıdır ki, rəsmi İrəvanın onsuz da Konstitusiya dəyişikliyini ləngitməyə çalışması, Azərbaycana və Türkiyəyə qarşı əsassız iddialarından əl çəkməməsi ilə sülh danışıqlarını yubatmaba meyilli olduğunu ortaya qoyur. Ermənistan bir tərəfdən Türkiyə və Azərbaycan ilə münasibətlərin inkişaf etdirilməsində maraqlı olduğunu bildirir, digər tərəfdən isə Fransadan öldürücü silahlar almaqla bölgədə təhdid yaratmaqda davam edir. Bu isə prosesin sağlam şəkildə inkişafına öz mənfi təsirini göstərir. Təbii ki, bu həm

### Qarşılıqlı şəkildə milli maraqların qorunması...

Azərbaycan, həm də Türkiyə müstəvisində də xoş qarşılanmır. Çünki Türkiyə və Azərbaycan hər zaman qarşılıqlı şəkildə milli maraqlarını qorumağı özləri üçün ən vacib şərt sayırlar.

*P.İSMAYILOV*

# Armenin “əsirləri”...

## Cinayətkarlar cəzasını çəkməlidir!

Ötən ilin dekabrından başlayan yeni ikitərəfli təmaslar Ermənistan ilə Azərbaycan arasında sülh prosesini yeni bir məcraya yönəldib. Belə ki, məhz ikitərəfli təmasların nəticəsi olaraq bəzi ərazilərdə delimitasiya ilə bağlı işlər aparılıb, hətta sülhün yaxın vaxtda imzalanma perspektivindən bəhs açılıb. Bununla belə, sülh açıqlamaları ilə yanaşı, Ermənistanın bəzi qeyri-müəyyən addımları və bəyanatları da diqqəti cəlb edir. Məsələn, sülh prosesinə sadiq olduğunu iddia edən İrəvan aktiv silahlanma prosesi aparır, eyni zamanda, sülh prosesinə mənfi təsir göstərəcək iddialar irəli sürür. Sülhün isə şərtləri bəllidir - hələ 2022-ci ildə Azərbaycan sülh müqaviləsinin imzalanması ilə bağlı şərtlərini irəli sürmüşdü. Davam edən proses də məhz bu şərtlər daxilində aparılır - orada Ermənistanın Azərbaycan torpaqlarına əsassız iddiadan əl çəkməsi (Konstitusiya dəyişikliyi), kommunikasiyaların açılması, qarşılıqlı şəkildə ərazi bütövlüyünü tanıması və digər məsələlər yer alır.

### Qriqoryanın absurd “arzuları”...

Qeyd edildiyi kimi, Ermənistan sülh prosesini uzatmaq, məsələni daha fərqli istiqamətlərə yönəltmək üçün min bir fərqli bəhanəyə əl atır. Səsləndirilən “bəyanatlar” isə absurd olması ilə yanaşı, benəlxalq hüquqla da ziddiyyət təşkil edir. Məsələn, Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan jurnalistlərə açıqlamasında bildirib ki, İrəvanla Bakı arasında sülhün tam olmasından çıxış etsək, bunun üçün bütün məhbusların qaytarılmasını təmin etmək lazımdır: “Azərbaycandan erməni əsirlərin qaytarılması Ermənistan hakimiyyəti üçün prioritet olaraq qalır”.

O qeyd edib ki, məhbusların qaytarılması məsələsi Azərbaycan tərəfi və beynəlxalq tərəfdaşlarla daim müzakirə olunur və bu istiqamətdə fəal iş aparılır. Qriqoryana görə, bu məsələni sülh müqaviləsinin imzalanması ilə əlaqələndirmək düzgün deyil, çünki erməni tərəfi hesab edir ki, məhbuslar tez bir zamanda qaytarılmalıdır. O qeyd edib ki, ölkələr arasında sülh hərtərəfli olmalıdır və məhbusların qaytarılması bu prosesin tərkib hissəsidir.

Xatırladaq ki, Qriqoryanın ağızdolusu “əsir” adlandırdığı məhbuslar Azərbaycan qanunlarını pozmuş, Qarabağda vaxtilə mövcud olan qondarma separatçı xuntanın üzvləridir - rejimin “prezidentləri” Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, sabiq “xarici işlər naziri” David Babayan, eləcə də “parlament sədri” David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan hazırda DTX İstintaq təcridxanasında saxlanılırlar. Separatçılar sülh və insanlıq əleyhinə, müharibə cinayətlərində, terrorçuluqda, terrorçuluğu maliyyələşdirmədə, qətl, qanunsuz silahlı birləşmə yaratmaqda və s. cinayət əməllərində təqsirləndirilirlər.

### Parisin separatizm sevgisi...

Qriqoryanın “əsir” dedikdə bu şəxsləri nəzərdə tutması şübhəsizdir - çünki Azərbaycanla Ermənistan arasında aparılan danışıqlar əsasında hərbi əsirlər qarşılıqlı şəkildə azad ediliblər. Sözügedən şəxslər isə vurğulandığı kimi dövlətə qarşı cinayətdə ittiham olunan şəxslər, cinayətkarlardır. Əslində, Qriqoryan bu şəxslərin törətdikləri cinayətlərin miqyasından xəbərdardır. Bu mənada, onun cinayətkarları azad etmək kimi bir “fikir” səsləndirməsi olduqca absurddur. Adıçəkilən bu şəxslərin hər bir onlarla, bəlkə də yüzlərlə şəxsin qətlində iştirakçıdır, 30 ilə yaxın davam edən işğalda günahkardırlar. Axı, dünyanın heç bir nöqtəsində qatilə, cinayətkara və ya separatçıya azadlıq tələb etmək kimi bir “presedent” yoxdur - Qriqoryan hansı haqqla belə bir “fikir” irəli sürür.

Görünən budur ki, Ermənistanı yenidən revanşizmə sürükləyən Fransa növbəti dəfə özünün çirkin oyununu oynamaq və rəsmi İrəvandan da alət kimi istifadə etmək niyyətindədir. Çünki məhz rəsmi Paris zaman-zaman bu cinayətkarların müdafiəsi, onların azad edilməsi kimi fikirlərlə yadda qalıb - hətta Avropanın bəzi “benəlxalq” statuslu təsisatlarını da bu istiqamətdə bəyanatlar verməyə “məcbur ediblər”. Görünən budur ki, Ermənistana verilən silahların əvəzində Parisin İrəvandan istəklərindən biri də məhz özünün əlaltılarını - separatçı rejim rəhbərlərini azad etmək olub.



### Azərbaycanın iradəsinə təsir göstərmək mümkün deyil

Amma Azərbaycan dövləti hər zaman bəyan edib və göstərib ki, bizim iradəmizə kimsə təsir göstərə bilməz. Yürütdüyü dövlət siyasətində hər zaman humanizmi əsas prioritet kimi məyyənləşdirən Azərbaycanda qanunun aliliyinin təmin edilməsi bütün halların fövqündədir - Azərbaycan hüquqi dövlət olaraq öz sərhədləri daxilində separatizmin yayılmasına rəvac vermiş, fərqli cinayətlərdə ittiham olunan şəxslərin qanun qarşısında mühakiməsinə nail olub. Hər zaman ədaləti və beynəlxalq hüququ dəstəkləyən və bütün addımlarında bu kimi bəşəri dəyərlərə istinad edən ölkəmiz üçün ittiham olunan şəxslərin kimliyi, adı, soyadı və ya milli mənsubiyyəti fərq etmir - bizim üçün qanunların çərçivəsində aparılan mühakimə əsasdır. Qriqoryanın dili ilə bu çağırışı “səsləndirənlər” isə Azərbaycan üçün heç bir təsir yarada bilməz - Azərbaycanın davranışları yalnız və yalnız milli maraqlara əsaslanır...

*PƏRVİZ*

# Qarabağ və Şərqi Zəngəzurun "yaşıl dünya"sı...

## Regionun iqtisadi potensialı yüksəkdir

*Yeganə BAYRAMOVA*

İşğaldan azad olunmuş rayonlarımız enerji təminatında mühüm rol oynayır. Bu fakt təbii olaraq müxtəlif xarici şirkətlərin marağındadır. Ümumiyyətlə, hazırda regionlarımızda sosial-iqtisadi inkişafın təşviq edilməsi üçün mühüm addımlar atılır. Həmin addımlardan biri Qarabağ və Şərqi Zəngəzurun "Yaşıl Enerji Zonası" elan edilməsidir. Təbii ki, bu da qlobal çağırışlara və müasir inkişaf tendensiyalarına uyğun strateji yanaşmanın məhsuludur. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə bu ərazilərin enerji təminatında bərpaolunan enerji mənbələrindən maksimum istifadə ediləcəyi, ekoloji təmiz, səmərəli innovativ texnologiyaların tətbiq olunacağı barədə qəti mövqe ifadə edib.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Bu bölgələrin bərpaolunan enerji istehsalı üçün imkanları çox genişdir. Belə ki, Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Qarabağın cənub düzənlik hissəsi - Füzuli, Cəbrayıl, Zəngilan rayonları Naxçıvan Muxtar Respublikası ərazisindən sonra ikinci yerdə dayanır. Burada bir kvadratmetr üfüqi səthə düşən Günəş radiasiyası ildə 1600-1700 kilovat/saat təşkil edir. Həmin ərazilərin ümumi günəş enerjisi potensialı 3000-4000 meqavatdır. Ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə potensialın daha dəqiq hesablanması həyata keçiriləcək.

**Azərbaycan 2030-cu ilədək...**

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən iqtisadçı Fuad İbrahimov bildirib ki, Qarabağ və Şərqi Zəngəzur alternativ mənbələrdən əldə edilən enerji hesabına enerji təminatını, istehlakını həyata keçirəcək. Bu il COP29-a ev sahibliyi edəcək Azərbaycanın "yaşıl zona"nın yaradılmasını dəstəkləyən ölkələrdən olduğunu diqqətə çatdıran ekspert qeyd edib ki, Qarabağ və Şərqi Zəngəzurda bu istiqamətdə işlər davam etdirilir: "Digər bölgələrimizdə də alternativ mənbələrdən əldə edilən enerji istehlakının artırılması prioritet olaraq qalır. Azərbaycan bütövlükdə ətraf mühitin qorunması və "yaşıl iqtisadiyyat"ın dəstəklənməsi istiqamətində mövqelərini daha da möhkəmləndirəcək. COP29-un əsas istiqamətlərindən biri də "yaşıl enerji"nin dəstəklənməsi və bu sahədə innovasiya və texnologiyaların daha sıx şəkildə istifadəsinə nail olmaqdan ibarətdir. Praktik olaraq COP29-a ev sahibliyi edəcək Azərbaycan həm də "yaşıl enerji"nin inkişafına regionda ən çox töhfə verən ölkələrdən biridir. Bu ilin yanvar-fevral aylarında Azərbaycanda günəş enerjisinin istehsalı 6 dəfə artıb və 50,2 MVt-dən artıq günəş enerjisi istehsal olunub. Bərpa olunan mənbələrdən enerji istehsalında artımlar var. Bu artımlar Azərbaycan üçün 2030-cu il hədəflərinə nail olunması baxımdan vacibdir.



Yəni Azərbaycan 2030-cu ilədək ümumi istehlakın 30 faizini "yaşıl enerji" hesabına ödəmək niyyətindədir".

İqtisadçı qeyd edib ki, digər tərəfdən bu, Azərbaycan üçün "yaşıl enerji" ixrac imkanları deməkdir: "2027-ci ildən Azərbaycanın Avropa İttifaqı ölkələrinə öz "yaşıl enerji"sini çıxaracağı gözlənilir. "Yaşıl enerji" ixracının artması Azərbaycan üçün ixracın şaxələndirilməsi və enerji ixracının strukturunun keyfiyyətcə dəyişməsi baxımından vacib bir addımdır".

**Termal mənbələrdən enerji məqsədli istifadə...**

F.İbrahimov qeyd edib ki, adını çəkdiyimiz rayonlarda eləcə də külək enerjisini istehsal etmək mümkündür: "Çünki regionun dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin saniyədə 7-8 metr olduğu geniş ərazilər mövcuddur. Kəlbəcər və Laçın rayonlarının Ermənistanla sərhəd ərazilərində küləyin orta illik sürəti saniyədə 10 metrə çatır. Ümumilikdə, Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 300-500 meqavat kimi qiymətləndirilir. Ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə bu sahənin də dəqiq potensialı hesablanacaq.

Bunlardan əlavə, Kəlbəcərdə və Şuşada termal su ehtiyatları var. Qarşıda dayanan vəzifələrdən biri də termal mənbələrdən enerji məqsədli istifadənin mümkünlüyünü tədqiq etməkdir".

**İnvestorlarla müzakirələr aparılır**

İqtisadçının sözlərinə görə, bu gün dünyanın ən böyük enerji şirkətləri də Azərbaycanda bərpaolunan enerji növlərinin istehsalına maraq göstərir və artıq bu maraq reallaşır: "İşğaldan azad edilmiş ərazilərimizdə "yaşıl enerji" zonasının yaradılması məqsədilə bərpaolunan enerji mənbələrindən istifadə ilə bağlı özəl investisiyaların cəlb olunması üçün investorlarla müzakirələr aparılır. Bir sözlə, bu rayonları "yaşıl enerji" məkanına çevirmək üçün imkanlardan səmərəli istifadə olunur. Bu da deməyə əsas verir ki, həmin istiqamətdə görülən işlər ölkəmizin daha böyük sosial-iqtisadi inkişafına xidmət edəcək".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə hazırlanmışdır**

# Dünya Bankı ilə Ölkə Tərəfdaşlıq Çərçivəsi...

## Bank azad olunmuş ərazilərdə "yaşıl enerji" layihələrinə sərmayə qoyacaq





Mərkəzi Bankda (MB) Dünya Bankının (DB) Cənubi Qafqaz üzrə regional direktoru Roland Praysın rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirilən görüşdə əməkdaşlıq çərçivəsində ölkəmizdə icra edilən və perspektivdə nəzərdə tutulan layihələr müzakirə olunub, yeni təşəbbüslər qiymətləndirilib. Görüş zamanı DB ilə Azərbaycan hökuməti arasında yeni Ölkə Tərəfdaşlıq Çərçivəsinin (ÖTÇ) hazırlıq prosesi məsələlərinə də toxunulub.

Azərbaycanın yeni inkişaf prioritetləri və çağırışlarını əks etdirən Ölkə Tərəfdaşlıq Çərçivəsi Dünya Bankı ilə ölkəmizin əməkdaşlığının müasir Yol Xəritəsidir və uzunmüddətli strateji prioritetlərinə və regional və qlobal sınaqların fonunda qısa, orta və uzunmüddətli ehtiyaclara əsaslanır. Sənədin əsas fundamental istiqamətləri neft və qaz gəlirlərindən asılılığın azaldılması və qeyri-neft mənbələrinin sütunları üzrəində dayanıqlı iqtisadi artımların təmin edilməsi, şaxələndirilmiş gəlirlərin insan kapitalına yönəldilməsi və sosial rifahın yaxşılaşdırılması, fiziki infrastruktura və daha güclü institutlara investisiya yatırımlarının artımı yolu ilə ölkənin xarici şoklara dayanıqlığının gücləndirilməsindən ibarətdir. Ümumilikdə, ÖTÇ-nin əsas məqsədi və qayəsi idarəçilik, insan kapitalı və kommunikasiya bağlantılarının əlaqələndirilməsi və insanların ortaq rifahının təşviqindən ibarətdir.

Dünya Bankı (DB) yeni islahatların Azərbaycanın uzunmüddətli inkişafında, xüsusilə də qeyri-neft iqtisadiyyatının dayanıqlı inkişafda töhfəverici rol oyanayacağını da proqnozlaşdırır. Bankın bir müddət əvvəl "Qlobal İqtisadi Perspektivlər" adlı hesabatında Azərbaycanla bağlı proqnozları yeniləyib. Sənəddə qeyd edilir ki, 2024-2026-cı illərdə Azərbaycan iqtisadiyyatı ilə bağlı ümidverici proqnozlar qorunub saxlanılacaq, ümumi daxili məhsul (ÜDM) istehsalı cari ildə 2,3 faiz, 2025-ci və 2026-cı illərdə isə iqtisadi artımın 2,4 faiz artacağı proqnozlaşdırılır.

DB ilə Azərbaycan arasında əməkdaşlığın gündəliyində iqlim dəyişikliklərinə qarşı mübarizə, "yaşıl iqtisadiyyat" və "yaşıl enerji" sahəsində yeni layihələrin icrası da dayanır. Dünya Bankı Qrupunun əsas maliyyə strukturlarından biri olan Beynəlxalq Maliyyə Korporasiyası arasında imzalanmış Azərbaycanda bərpa olunan enerji sahəsinin inkişafı məqsədi ilə dənizdə külək enerjisi resursundan istifadə üzrə əməkdaşlığa dair anlaşma memorandumubu sahədə ilkin sərmayə proqramı hesab edilə bilər.

Bank "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in 5-ci istiqaməti olan "təmiz ətraf mühit və yaşıl artım ölkəsi" hədəfinin reallaşmasına töhfə verəcəyini bəyan edib. Ölkəmzidə səfərdə olan Dünya Bankının nümayəndə heyəti ilə bir müddət əvvəl keçirilən görüşdə COP29 və iqlim maliyyələşdirməsinə dair tərəfdaşlıq imkanları barədə də müzakirə aparılıb. Bankın Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Antonella Bassani qeyd edib ki, ölkəmizdə enerji keçidinin bərpa olunan enerji və enerji səmərəliliyi komponentlərinə Dünya Bankının dəstəyinin artırılması, COP29 tədbiri ilində Azərbaycanın yaşıl sektorlarına sərmayə qoyuluşları nəzərdən keçiriləcək və bankın donorluğu təmin olunacaq.

DB Azərbaycanda 760 MVt gücündə Bankə və Biləsuvar günəş enerjisi layihələrinin enerji sisteminə qoşulması, Günəş panelləri infrastrukturunun genişləndirilməsi, "yaşıl hidrogen" istehsalı və digər bərpa olunan sahələrə investisiyaların qoyuluşunda açıq olduğunu bəyan edib. Ümumilikdə, Dünya Bankı 2027-ci ilədək ölkəmizdə 8 külək və Günəş elektrik stansiyalarının qurulması və enerji sisteminə inteqrasiyası məqsədilə maliyyə dəstəyini göstərəcək. Həmçinin, işğaldan azad olunmuş ərazilərdə bərpa olunan enerji mənbələrinə sərmayələrin yönəldilməsi, "ağıllı şəhər və ağıllı kənd" konsepsiyalarının tətbiqində "yaşıl texnologiyalar"ın və "yaşıl enerji zonası" layihələrinin icrasında da yaxından iştirakını etmək marağını ifadə edib.

DB, həmçinin, bərpa olunan enerjinin ixracında və regional "yaşıl enerji" dəhlizinin yaradılmasımnda da maliyyə təminatçısı olmaq niyyətini bəyan edib. "Xəzər-Qara dəniz-Avropa" yaşıl enerji dəhlizinin, növbəti illərdə dənizdə külək enerjisi potensialının artırılması üzrə əməkdaşlığın isə Azərbaycanın "yaşıl enerji"nin təchizatçısı olmaq niyyətini bəyan edib. Bankın TransXəzər "yaşıl enerji" dəhlizinin maliyyə təchizatçısı kimi donorluq imkanları da istisna deyil.

*E.CƏFƏRLİ*

# BMT-nin Ali Komissarı, yoxsa erməni lobbisinin "əsiri?

## İcma: Volker Türk Qərbi azərbaycanlıların öz dədə-baba yurdlarına qayıdışı məsələsinə diqqət yetirməlidir

*Nardar BAYRAMLI*

Müəyyən beynəlxalq dairələr Azərbaycana qarşı qərəzli kampaniyaları davam etdirir. Xüsusilə, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsindən sonra bu istiqamətdə "fəallıq" artıb. İş burasındadır ki, beynəlxalq hüquqdan və insan haqlarından danışan dairələr bəzən bu amilləri görməzdən gəlirlər. Bu da ikili standartların bariz nümunəsidir. Bunu BMT-nin İnsan Haqları üzrə Ali Komissarı Volker Türkün yanaşmasından da aydın görmək mümkündür.

Belə ki, Ermənistanın Avropa Şurası Parlament Assambleyasında (AŞPA) nümayəndə heyətinin üzvü Armen Gevorgyan Volker Türkdən Azərbaycanda saxlanılan "erməni əsirlərin", o cümlədən Qarabağın erməni separatçılarının rəhbərləri ilə bağlı mövqeyini soruşub. Ali Komissar isə "Aydındır ki, keçən il ermənilərin Qarabağ ərazisindən köçməsi hamımızı narahat edirdi. Baş verənlərlə bağlı daha çox məlumat əldə etmək üçün biz Ermənistanda bir sıra missiyalara başladıq. Biz həll yollarını tapmaq üçün həm Azərbaycan, həm də Ermənistanla dialoq aparırıq. Təbii ki, geri qaytarmaq hüququ var, mülkiyyətə hörmət etmək, qorumaq hüququ var",- deyə cavab verib. Əslində isə BMT rəsmisi bu suala cavab olaraq, Azərbaycanda saxlanılanların hərbi cinayətkarlar olduğunu söyləməli, Ermənistanın 30 illik işğalçılıq siyasəti nəticəsində 1 milyondan çox azərbaycanlıların doğma yurdlarında yaşamaq hüququndan məhrum edildiyi və onların hüquqlarının bərpasının vacibliyini vurğulamalı idi. Digər tərəfdən, separatizm beynəlxalq hüquqda da cinayət hesab olunur. Lakin buna baxmayaraq, BMT-nin Ali Komissarı beynəlxalq hüquqa istinad etmək əvəzinə, cinayətkar ermənilərin qaytarılmasının mümkünlüyündən, Qarabağı könüllü tərk edən ermənilərin mülkiyyət hüququndan və s. danışıb.

Yeri gəlmişkən, Qərbi Azərbaycan İcması bəyanat verərək BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Volker Türkün 2023-cü ilin sentyabr ayında baş vermiş hadisələrə dair qərəzli fikirlər səsləndirməsi ilə bağlı təəssüfünü ifadə edib. Qərbi Azərbaycan İcması Volker Türkü insan hüquqları məsələsinə ikili standartlar prizmasından yanaşmamağa, Qərbi azərbaycanlıların Ermənistana, öz dədə-baba yurdlarına qayıdışı məsələsinə diqqət verməyə və bunu BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Ermənistanla dialoqunun tərkib hissəsinə çevirməyə çağırıb.



Qeyd edək ki, V.Türkün ermənipərəst mövqe sərgiləməsi ilk dəfə deyil. Hələ ötən ilin əvəlində Laçın-Xankəndi yolunda azərbaycanlı vətəndaş cəmiyyəti fəallarının dinc aksiyası zamanı da BMT rəsmisi qərəzli açıqlama vermişdi. Görünən odur ki, BMT kimi dünyanın ən böyük təşkilatının nümayəndəsi də erməni lobbisinin "əsirinə" çevrilib. Əgər belə olmasaydı, V.Türk Ermənistanın 30 illik işğalçı siyasəti dövründə törətdiyi beynəlxalq və müharibə cinayətlərinə səssiz qalmazdı. Hansı ki, erməni tərəfinin cinayətləri bəşəriyyətə qarşı yönəlmiş cinayətlər sırasındadır. Ali Komissarın öz diqqətini Ermənistanın azərbaycanlı hərbi əsirlərə və mülki məhbuslara, eləcə də itkin düşmüş azərbaycanlılara qarşı qəddar rəftarına dair sübutlara yönəltməyi daha məqsədəuyğun olardı. Ermənistanın hərbi təcavüzü başlayandan bəri 3890-dan çox azərbaycanlı itkin düşüb və onların taleyi naməlum olaraq qalmaqdadır. İtkin düşənlərin 3171 nəfəri hərbçi, 719 nəfəri isə 71 uşaq, 267 qadın və 326 ahıl şəxs daxil olmaqla mülki şəxslərdir.

Ermənistana və digər ölkələrə köç edən ermənilərin hüquqlarının təmin edilməsi ilə bağlı iddialara gəlincə, xatırlatmaq vacibdir ki, Azərbaycanın reinteqrasiya çağırışına, proqramına və bu istiqamətdə addımlarına baxmayaraq, yerli erməni əsilli şəxslər ölkəmizi tərk etmək və geri qayıtmamaq qərarına gəliblər. Həbsdə olan ermənilər isə müharibə cinayətləri, etnik təmizləmə, hərbi təcavüz, işgəncə və digər ağır cinayətlərdə ittiham olunurlar. Onlarla bağlı istintaq prosesi davam edir və kifayət qədər faktlar var. Cenevrə Konvensiyalarına, habelə, ümumilikdə, beynəlxalq və milli qanunvericiliyə uyğun olaraq, Azərbaycan bu kimi cinayətlərin araşdırılması və mühakiməsi üzrə hüquq və öhdəliklərə malikdir.

Bütün bunları nəzərə alaraq, beynəlxalq təşkilatların yüksək rütbəli məmurları hər hansı bir bəyanat verməzdən əvvəl ilk növbədə əsaslanmış və etibarlı mənbələrə istinad etməlidir. Lakin V.Türk kimilər qərəzli mövqeyi onların təmsil etdikləri təşkilatın nüfuzuna ciddi xələl gətirir, həmçinin onların obyektivliyinə əsaslı şübhələr yaradır.

# Şimal-Cənub Dəhlizi strateji əhəmiyyətini artırır

## Azərbaycan, Rusiya və İran daşınmaları asanlaşdırmaq üçün yeni işçi qrupu yaradıb

Şimal-Cənub Nəqliyyat Dəhlizi region ölkələri üçün öz strateji əhəmiyyətini daha da artırmaqdadır. Hindistandan və İran Körfəzi regionundan, yüklərin Rusiya, Qərbi Avropa, Baltikyanı və Skandinaviya ölkələrinə çatdırılmasına hesablanmış bu dəhlizin böyük bir coğrafi şəbəkəsi artıq xeyli müddətdir ki, öz hərəkətliliyi ilə diqqəti cəlb edir. 13 ölkə bu layihədə iştirakını təsdiqləməklə bu tranizt ailəsini daha da böyütməyə çalışır.

Qeyd edək ki, Şimal-Cənub dəhlizinin digər marşrutlarla müqayisədə əsas üstünlüyü tranzit məsafəsinin və tranzit vaxtının iki-üç dəfə az olmasıdır. Əgər dəniz yolu ilə daşıma İran körfəzi və Hind Okeanı, Süveyş kanalı, Aralıq Dənizi, Baltik Dənizindən keçərək Helsinki şəhərinə 45-60 gün ərzində daşıma müddəti təşkil edirsə, Şimal-Cənub Tranzit Dəhlizi ilə bu müddət 20-25 gün təşkil edir. Yəni bu nəqliyyat arteriyası dünya üçün ən əhəmiyyətli daşınma xətlərindən biri kimi aktullığını daha da artırır.

Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi ən mühüm quru hissəsi Rusiya, Azərbaycan və İrandan keçir. Azərbaycan Şərq-Qərb dəhlizi ilə yanaşı, bu marşrut xəttinə də xüsusi əhəmiyyət verir və bunu şərtləndirən əsas amil ölkəmizin ən sərfəli coğrafi kəsişmə nöqtəsində yerləşməsidir. Yəni ölkəmiz həm Yeni İpək Yolunun Orta Dəhlizində və Şimal-Cənub xəttində orta mövqe tutmaqla bütün beynəlxalq nəqliyyat marşrutlarının əsas mərkəzi nöqtəsidir.

Son illərdə Azərbaycan öz nəqliyyat infrastrukturunu tam yeniləşdirməklə bu dəhlizin strateji əhəmiyyətinin artmasına öz töhfəsini verib. Xəzər dənizində ən böyük ticarət qovşağı olan Bakı Beynəlxalq Dəniz Limanının inşa olunması, Ələt Azad İqtisadi Zonasının yaradılması, dəmir yolu infrastrukturlarının şaxələndirilməsi və modernləşdirilməsi, avtomagistrallar, hava limanları kimi yeni layihələrin yaradılması da bu təşəbbüslərin nəticəsidir.

Eləcə də Azərbaycan və İran dəmir yollarının birləşdirilməsinə dair xeyli işlər görüb, Azərbaycanın Astara stansiyasından İranın Astara şəhərinə qədər dəmir yolu artıq inşa edilib. Hazırda dəhlizboyu daşımaların əsas hissəsi yük maşınlarından istifadə etməklə həyata keçirilir. Son illərdə bu 3 ölkənin dəhlizin axıcılıq gücünün artırılması istiqamətində atdığı addımlar və infrastruktur şəbəkəsinin yenidən qurulması "Şimal-Cənub"un həm də şaxələnməsinə imkanlar açıb. Belə ki, dəmir yolu ilə yanaşı, avtomobil yolunun da potensial ötürücülük qabiliyyəti yüksəlib.

Bu günlərdə Azərbaycan, İran və Rusiyanın nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə Şimal-Cənub bu dəhlizin rolu bir daha nəzərdən keçirilib və beynəlxalq yükdaşımalarında tələbatın artması nəzərə alınaraq yeni yol xəritəsinin hazırlanması müəyyənləşib. Bu məqsədlə tərəflər işçi qrupun yaradılması barədə razılığa gəliblər. Növbəti mərhələdə İran və Azərbaycan dəmir yollarının tam birləşdirilməsi uçun çatışmayan 167 km uzunluğundakı Astara-Rəşt dəmir yolunun tikintisi reallaşdırılacaq. Bütün işlər yekunlaşandan sonra, Skandinaviya ölkələri, Rusiya, Azərbaycan və İranın dəmir yolları bir şəbəkədə birləşəcək və Şimaldan İran körfəzinə qədər vahid dəmir yolu formalaşacaq. Bu isə onu göstərir ki, Şimal-Cənub dəhlizi böyük coğrafi hüdudları əhatə etməklə əsas nəqliyyat arteriyalarından birinə çevriləcək.




Bu layihə Orta-Mərkəzi Asiya ölkələri üçün də xüsusi maraq doğurur. Bu dəhlizin müəlliflərindən biri olan Hindistan əlavə daşınmalara inteqrasiya üçün yeni qovşaqlar inşa edir. Eləcə də Pakistan və digər ölkələrin də marağı böyükdür. Bir neçə gün əvvəl Azərbaycan, İran və Rusiya nümayəndələrinin keçirilən üçtərəfli görüşündə isə avtomobil nəqliyyatı ilə beynəlxalq yükdaşımaların artan tələbatları nəzərə alınmaqla, tranzit tariflərinin də səmərəliliyinə diqqən çəkilib. Həmin görüşdə gömrük xidmətinin, beynəlxalq yük daşıyıcıları assosiasiyalarının nümayəndələri, eləcə də logistika şirkətlərin rəhbərlərinin iştirakı bu dəhlizdə güzəştli ticarət rejiminin yaradılmasına işarədir. Eyni zamanda, sərhəd-keçid məntəqələrində nəqliyyat vasitələrinin sərhəddən keçməsi prosesi, gömrük yoxlaması və sənədlərin rəsmiləşdirilməsi qaydasının asanlaşdırılması da əməkdaşlıqda əsas prinsiplərdəndir. Çünki nəzarət-buraxılış məntəqələrində yoxlamalar, nəqliyyat vasitələrinin keçidində ləngimələr dəhlizin işinə təsir etdiyindən gözləmə müddətinin azaldılması istiqamətində əlavə tədbirlərin görülməsinə ehtiyac vardır.

Asiyanın enerji qovşaqlarında strateji yerlərdən birində qərarlaşan Pakistan da Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinə qoşulmağa hazır olduğunu bəyan edib. Pakistanın Rusiyadakı səfiri Məhəmməd Xalid Camali bildirib ki, sözügedən dəhlizə qoşulmaq üçün müvafiq iqtisadi-hüquqi prosedurlar başlayıb və sitrus meyvələrinin ilk partiyasının İran və Azərbaycan vasitəsilə Dağıstana çatdırılması bu dəhlizin rentabelliliyini və daşıyıcılıq gücünü artırır. Rəsmi İslamabad Şimal-Cənub dəhlizi ilə hazırda potensial 1 milyard dollar dəyərində ticarət daşınmalarını təmin etməkdədir, ticarət həcmlərinin isə daha da artırmaq imkanları nəzərdən keçirilir. Ümumiyyətlə Pakistan bölgədəki bütün transkommunikasiya xətlərinin iqtisadi səmərəliliyinə xüsusi önəm verir və İslamabad üçün qiymətləndirilir. Ölkə Böyük İpək Yolu marşrutunu canlandırmaq yönündə təşəbbüslərini də əsas dəstəkləyənlərdən biridir.

Şübhəsiz, həm Şərq-Qərb, həm də Şimal-Cənub dəhlziləri Azərbaycanı qonşu dövlətlərlə və beynəlxalq tərəfdaşlarla sıx birləşdirməklə geniş əməkdaşlıq formatları sayəsində ölkə iqtisadiyyatına milyardlarla dollar gəlir gətirəcək.

*ELBRUS*

# Yaxın qonşu, dost və strateji tərəfdaş...

## Azərbaycan-Gürcüstan münasibətləri uğurla inkişaf edir

*Nardar BAYRAMLI*

İyunun 27-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Gürcüstana rəsmi səfər edib. Səfər çərçivəsində Ceyhun Bayramov Gürcüstanın xarici işlər naziri İliya Darçiaşvili və digər yüksək səviyyəli rəsmilərlə görüş keçirib.

Ceyhun Bayramovun gürcü həmkarı İliya Darçiaşvili ilə görüşü zamanı Azərbaycan ilə Gürcüstan arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin siyasi, təhlükəsizlik, müdafiə, iqtisadi-ticari, enerji, nəqliyyat-kommunikasiyalar, mədəni-humanitar və digər aspektləri, gündəlikdə duran aktual məsələlər, habelə cari regional vəziyyət müzakirə olunub. Ölkələrimiz arasında ali və yüksək səviyyədə mövcud siyasi dialoqun, baş tutan intensiv səfərlərin, diplomatik nümayəndəlik və konsulluqların fəaliyyətinin, siyasi məsləhətləşmələr mexanizminin strateji tərəfdaşlıq münasibətlərinin daha da gücləndirilməsinə töhfə verdiyi vurğulanıb. Ceyhun Bayramov bu rəsmi səfərinin də Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığa əlavə təkan verəcəyinə ümidvarlığını ifadə edib.

**Regional layihələr ümumi maraqlarımıza xidmət edir**

Görüşdə iki ölkə arasında iqtisadiyyat, investisiyalar, ticarət, energetika, kommunikasiyalar sahələrində sıx əməkdaşlığın təqdirəlayiq olduğu, mövcud əməkdaşlıq nəticəsində Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz Dəhlizi və Bakı-Tbilisi-Qars kimi nəhəng regional layihələrin də uğurla həyata keçirildiyi vurğulanıb. Bakı-Tbilisi-Qars dəmir yolunun potensialının tam şəkildə istifadəsinin əhəmiyyəti qeyd edilib. İqtisadi inteqrasiya səylərinin gücləndirilməsi, habelə birgə layihələrin icrasının sürətləndirilməsi baxımından Azərbaycan ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın fəaliyyətinin inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb. Regional və qlobal təhlükəsizlik təhdidləri ilə mübarizədə milli səylərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin, xüsusilə kritik enerji instrastrukturu layihələrinin mühafizəsində əməkdaşlığın vacibliyi qeyd olunub. Eləcə də, müxtəlif çoxtərəfli platformalar, o cümlədən BMT, ATƏT, Avropa Şurası, QDİƏT, GUAM və digər çərçivələrdə qarşılıqlı dəstək və həmrəylik səylərinin bundan sonra da davam etdirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb. Humanitar tərəfdaşlıq gündəliyinin əsas istiqamətləri, xüsusilə təhsil, mədəniyyət, idman sahələrində birgə əməkdaşlığın gücləndirilməsinin ölkələrimiz arasında yüksək səviyyəli dialoqa töhfə verəcəyinə dair əminlik ifadə olunub.

Ceyhun Bayramov Azərbaycanın COP29 sədrliyi barədə ətraflı məlumat verərək, COP29-un, həmçinin Gürcüstanla bu sahədə əməkdaşlığımızın gücləndirilməsi üçün əlavə imkanlar yaratdığını qeyd edib. Bununla yanaşı, “Qara Dəniz Yaşıl Kabel”inin reallaşdırılması istiqamətində səylər ətraflı müzakirə olunub.

Postmünaqişə dövründə regional sülh və quruculuq səyləri, Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə əsas təhdid və maneələrdən bəhs edən nazir ölkəmizin sülh gündəliyinin təşəbbüskarı kimi bölgəmizdə təhlükəsizlik və əmin-amanlığın bərqərar edilməsi istiqamətində səylərini irəliləmək əzmində olduğunu vurğulayıb. Sülh sazişinin mətni üzrə əhəmiyyətli irəliləyiş əldə edilməsinə baxmayaraq, Ermənistan konstitusiyasında və digər qanunvericilik aktlarında Azərbaycanın ərazi bütövlüyünə qarşı davam edən iddiaların sülh prosesi çərçivəsində əsas maneə olduğu diqqətə çatdırılıb.



Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

İlya Darçiaşvili: Gürcüstan Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanması üçün əlindən gələni edəcək

Daha sonra nazirlər görüşün nəticələri ilə bağlı mətbuat konfransında bəyanatlarla çıxış ediblər. Gürcüstanın xarici işlər naziri İlya Darçiaşvili bildirib ki, hər iki ölkə bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir: “Azərbaycan bizim üçün yalnız yaxşı qonşu və dost ölkə deyil, eyni zamanda, çox yaxşı strateji tərəfdaşdır”. O qeyd edib ki, hər iki ölkə enerji, nəqliyyat, logistika və digər sahələrdə səmərəli əməkdaşlıq edir. Regional sülhün əldə olunması məsələsinə toxuna nazir deyib ki, Gürcüstan Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanması üçün əlindən gələni edəcək: “Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdiyi iqtisadi layihələr təkcə bizim üçün deyil, Avropa üçün də mühüm əhəmiyyət kəsb”.

Ceyhun Bayramov isə deyib ki, Azərbaycan ilə Gürcüstan arasındakı ikitərəfli münasibətlərin inkişafında dövlət və hökumət başçıları mühüm rol oynayır: “Bizim aramızda üçtərəfli - Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlıq platforması da mövcuddur. Bir sıra mühüm qərarlar qəbul edilib və bəzi mövzularda razılıq əldə olunub. Ölkələrimiz arasında həyata keçirilən layihələr nəqliyyat, enerji təhlükəsizliyi baxımından çox vacibdir”. Ölkələrimizin arasında iqtisadi əlaqələrin də yüksək səviyyədə olduğunu diqqətə çatdıran nazir əlavə edib: “Ticarət dövriyyəsi keçən il 900 milyon dollar olub ki, bu da 2022-ci illə müqayisədə 12 faizdən çoxdur. Azərbaycanın neft və qaz məhsulları Gürcüstan ərazisindən keçən boru kəmərləri vasitəsilə dünya bazarlarına çatdırılır. Bu layihələr regionumuzun inkişafına böyük töhfə verir. “Yaşıl enerji” dəhlizi layihəsi də əsrin əhəmiyyətli layihələrindən sayıla bilər”.

**Ceyhun Bayramov: Yaxın gələcəkdə növbəti müsbət addımların şahidi olacağıq**

Regiondakı vəziyyətə gəlincə Ceyhun Bayramov qeyd edib ki, Ermənistanla Azərbaycan arasında sülh sazişinin mətni ilə bağlı kifayət qədər əhəmiyyətli proqres var. Açıq qalan məsələlərin sayı əhəmiyyətli dərəcədə azalıb. O, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının qaldığını xatırladıb: “Ermənistanın əsas qanununda Azərbaycana qarşı ərazi iddiaları qalır. Bu, bizim tərəfimizdən prosesin başa çatdırılmasında ən ciddi əngəl kimi görünür”. Nazir əlavə edib ki, bu, Ermənistanın özü üçün də çox xoşagəlməz hal kimi qəbul edilməlidir: “Bu istiqamətdə müvafiq addımların atılmasını gözləyirik”.

Ceyhun Bayramov Ermənistanla sərhədlərin delimitasiya sahəsində işlər davam etdiyini də deyib: “Yaxın gələcəkdə növbəti müsbət addımların şahidi olacağıq”. Onun sözlərinə görə, son aylarda Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində müsbət inkişaf müşahidə edilir.

# Ermənistanda xarici investorlara qarşı dələduzluq

## “Wolnert” şirkəti səhmlərinin zorla əlindən alınmasına görə, İrəvana qarşı 1,2 milyard dollar iddia qaldırıb

“Wolnert Finance Limited” (“Wolnert”) şirkəti Ermənistan dövlətinə qarşı 1,2 milyard dollar təzminat iddiası qaldırıb. İddiada bildirilir ki, Ermənistan hökuməti şirkətin Zəngəzur Mis-Molibden Kompleksinə sərmayə qoymasının qarşısını siyasi kampaniya ilə alıb, nəticədə dövlət özü kombinatda əhəmiyyətli pay əldə edib. İsveçrənin “Concern Dialog” korporasiyasının müştərisi olan “Wolnert Finance Limited”in hazırladığı press-relizini yayımlayaraq bildirir ki, 2024-cü il iyunun 21-də Dünya Bankının İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəzinin (ICSID) baş katibi “Wolnert”in Ermənistana qarşı 3 iyun tarixində qaldırdığı arbitraj iddiasını qeydə alıb. Bu barədə məlumat Ermənistan Respublikasının Baş nazirinin Ofisinə, Xarici İşlər Nazirliyinə, Maliyyə Nazirliyinə və Beynəlxalq Hüquq Məsələləri üzrə Nümayəndəliyinə təqdim edilib.

Şirkət bildirir ki, İrəvan hökuməti və Kipr Respublikası Hökuməti arasında 1998-ci ildə İnvestisiyaların Təşviqi və Mühafizəsi haqqında Sazişdən irəli gələn öhdəlikləri ciddi şəkildə pozub. Belə ki, “Wolnert” Ermənistanın ən böyük mədən şirkəti olan Zəngəzur Mis-Molibden Kombinatına (ZCMC) sərmayə qoyması və müəssisədə səhmdar kimi əhəmiyyətli pay əldə etmək üçün hökumətin siyasi motivli kampaniyasına inanıb, ancaq hakimiyyətin verdiyi zəmanət yerinə yetirilməyib. Ermənistan hökuməti vaxt uzadaraq əslində “Volnert”ə bu müddətdə öz mütəxəssislərini cəlb etməsinə, fizki və maddi güc sərf edərək sərmayə planı hazırlamasına inandırıb. Ancaq bu saxtakarlığın üstü bir müddət sonra açılıb, investisiya layihəsi, ümumiyyətlə, İrəvanın iqtisadi qurumlarında müzakirə olunmayıb, seyfin hansısa küncünə atılıb və əməkdaşlıq qapısı qapadılıb.

Beləliklə, “Volnert” erməni hökumətinin ZMMK-dakı payla bağlı vədlərini əngəllədiyini və qanuni hüquqlarını pozduğu üçün ən azı 1,2 milyard dollar itki ilə qarşılaşdığını iddia edir və bu həcmdə təzminat üçün beynəlxalq müstəvidə dava açmağa qərar verib. Açıqlamaya görə, “Volnert ICSID” proseslərində yüksək ixtisaslı hüquqşünaslar qrupu ilə təmsil olunur və işə beynəlxalq səviyyəli məsləhətçilər, ekspertlər cəlb olunub.

Göründüyü kimi “Wolnert” şirkəti isə ona qarşı edilmiş bu haqsızlığı aradan qaldırmaq, daha doğrusu, investisiya imicinə vurulmuş zərbəni və ilkin iqtisadi-texniki əsaslandırma layihəsinin hazırlanmasına sərf etdiyi fiziki vaxtı və imkanlarının maddi dəyərini ən böyük təzminatla ödətdirməkdə israrlıdır. Onun bu inadı rəsmi İrəvan üçün həm başağrısı ola bilər, həm də iqtisadi reytinqini yerə vurmuş dərəcəyə gətirəcək. Nəzərə alsaq ki, iqtisadi mübahisə ən yüksək instansiyada Dünya Bankının İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəzində iddiia reyestrinə daxil edilib, bunun Ermənistan üçün çox ciddi fəsadlarının olacağı şübhə doğurmur.

## Zəngəzur Mis-Molibden Kombinatında reketsayağı idarəetmə...

Əvvəlcə mübahisənin hüquqi obyekti olan Zəngəzur Mis-Molibden Kompleksi və yaranma tarixi barədə qısa məlumat verək. Azərbaycanın əzəli torpağı olan və 1989-cu ilə qədər soydaşlarımızın yaşadığı, qurub-yaratdığı, sənayeləşmənin iri mərkəzi kimi inkişaf etdiyi Qafan rayonuna məxsus Kacaran şəhərində yerləşən Zəngəzur Mis-Molibden Kombinatı (ZMMK) 1952-ci ildə keçmiş SSRİ-nin layihəsi kimi qurulub. Hasilat rayonunda mütəxəssislərin və işçilərin böyük bir qismi də azərbaycanlılar olub. Adından da göründüyü kimi Zəngəzur Mis-Molibden Kombinatı tarixi Azərbaycan etimalogiyasını hələ də qoruyub saxlayıb. Əvvəlcə mədən yeraltı və açıq mədən üsullarının kombinasiyası ilə, 1957-1960-cı illərdə isə açıq mədən üsulları ilə istismar prosesinə başlanmaqla müəssisə iri filizçıxarma mərkəzinə çevrilib. İllik hasilatı ildə təxminən 25 milyon ton olam kombinat Ermənistanın ən böyük mədən şirkəti kimi reyestrə düşüb və dünyanın 10 ən böyük molibden istehsalçısından biri hesab olunur. Hasilat hazırda azalaraq təxminən 18-20 milyon ton filiz təşkil edir.

Hazırda Ermənistanda istismar olunan səkkiz mis-molibden yatağından ən böyüyü Zəngəzur Mis-Molibden Kombinatıdır və zavodun bazar payı 80 faizi ötür. Xammal Bolqarıstan, İsveçrə, Çin, Kanada və digər ölkələrə ixrac olunur. Molibden ixracatının təxminən 90 faizi Hollandiya və Rusiyanın payına düşür. Həmçinin İsveçrə, Belçika, Çin və digər ölkələrə də molibden ixrac olunur.

2022-ci ildən Zəngəzur Mis-Molibden Kombinatının əksər səhmləri rusiyalı biznesmen Qleb Trotsenkonun “Geopproning” şirkətlər qrupuna, 22 faizi Ermənistan rəhbərliyindəki məmur oliqarxiyasına verilib.

Halbuki İrəvanın İqtisadiyyat Nazirliyinin xarici investisiyalar departamenti 2 il əvvəl “Walnort Finance Limited”lə müqavilə bağlamışdı. Cəmi bir il sonra, 2021-ci ilin sentyabr-



oktyabr aylarında kombinatda süni şəkildə daxili gərginliklər yaradılır, səhmdarlar, işçilər və hökumət arasında qarşıdurma meydana çıxır. Hətta baş nazir Nikol Paşinyan Mis-Molibden Kombinatının işçilərindən siyasi məqsədlər üçün istifadə olunmasına işarə edərək müəssisənin idarə heyətinin cəzalandırılacağını bildirir. Sözsük ki, bu şou rusiyalı milyarder Roman Trotsenkonun yeni səhmdar kimi təxribat planının bir hissəsi idi və İsveçrə şirkətini qovmağa hesablanmışdı. Cəmi bir neçə ay ərzində “Wolnert” şirkətinin səhmləri qanunsuzcasına Roman Trotsenkonun oğlu Qlebin adına rəsmiləşdirilib. Nəticədə “Wolnert Finance Limited” ölkədən uzaqlaşdırılıb.

## Xarici investorları aldatmaq İrəvanın iqtisadi vərdişinə çevrilib...

Bu, biabırçı hadisə və beynəlxalq investora “atmaq” Ermənistanın iqtisadi qanunlarının reket idarəçiliyinə əsaslandığını, ölkənin Nazirlər Kabineti və iqtisadi administrasiyasının xarici investorları ələ salmaq üçün dolandırıcı bir mərkəzə çevrildiyini isbatlayır. Ölkədə xarici sərmayəçilərə olan bu münasibət ilk hal deyil və ötən ilin sonlarında “Sanitech International Group” korporasiyası da İrəvana qarşı investisiya iddiası qaldırıb. Mübahisə Ermənistan hökumətinin ayrı-seçkilik və mülki ələ keçirmə hərəkətlərindən qaynaqlanıb və şəhər bələdiyyəsi bağlanmış müqavilə öhdəliklərini yerinə yetirməyib və nəticədə “Sanitech International Group”la müqavilənin müddəti bitmədən xitam verilib. Başqa sözlə, “Saintech” qovulub. Şirkət yaydığı bəyanatda bunu siyasi motivli qərar adlandırıb və xarici investorlara qarşı ayrı-seçkiliyin əlaməti kimi təqdim edib. Bu hadisə ilə bağlı “Saintech”in Avropa iqtisadi instansiyalarında 40 milyon dollarlıq kompensasiyası hələ də həll olunmamış qalır.

Digər iddia “Amulsar Investor Venture” MMC-nin Vayots Dzor bölgəsində qızıl tərkibli kvarsit mədənində faydalı qazıntıların çıxarılmasına icazəni almasından sonra hasilat prosesindən kənarlaşdırılması ilə bağlıdır. Təxminən 280 milyon dollar sərmayəsi boşa çıxan bu şirkətin də iddiası hələ təmin edilməyib. Bu 3 fakt Ermənistanın mövcud investisiya obrazının acı da olsa, gerçək təsviridir. Dünənə qədər bu ölkəni “islahatçı”, “iqtisadi azadlıqların təmin olunduğu” və “yaxşı sərmayə mühiti” ölkə kimi təqdim edən beynəlxalq təşkilatların da üzqarası deməkdir.

## İqtisadi bürokratiya, məmur özbaşınalığı, korrupsiya...

Yuxarıdakı faktlar bir daha Ermənistan iqtisadiyyatını idarə edənlərin mahiyyətini ifadə etmək üçün kifayət edir. Ölkədəki iqtisadi bürokratiya, məmur özbaşınalığı, korrupsiya, azad biznesin boğulması barədə Ermənistanın yerli mediası və ictimai sektoru aylardır ki, car çəkir. Bir müddət əvvəl “Ermənistanın səsi” qəzetində dərc edilən yazıda qeyd edilirdi ki, hakimiyyət korrupsiya ilə mübarizə adı altında hökumət insanların başını aldatmaqla məşğuldur. Proteksionizm, antikorrupsiya aksiyaları müəyyən bir qrup “toxunulmazlar”ın - Paşinyanın yaxın çevrəsindən olan şəxslərin mövcudluğunu qorumağa xidmət edir.

Ölkədə çoxmilyonluq tenderlər Paşinyan komandasında yer alan şəxslərə verilir. Məsələn, hökumət komandasında yüksək vəzifə tutan Alen Simonyanın qardaşı tenderlərdə əsil korrupsiya sxemi qurub. Eləcə də digər məmur Tiqran Avinyanın rabitə və internet sahəsindəki maxinasiyaları, bank sektoru, Kacaran mis-molibden zavodu ilə bağlı qaranlıq işləri ölçüyəgəlməz dövlət korrupsiyasının nümunəsidir.

Səhiyyə sektorunda baş verən korrupsiya halları, xüsusilə də koronavirusla mübarizə üçün Səhiyyə Nazirliyinə ayrılmış vəsaitlərin mənimsənilməsi barədə Ermənistanın Hesablama Palatası tərəfindən hesabat dərc olunub. Palatanın şöbə müdirləri Xaçik Papazyan və Atom Cancuqazyanın təqdim etdiyi faktlara görə, ümumilikdə əhalinin tibbi preparatlarla təchizatı üçün 26,5 milyard dram (68 milyon dollar) ayrılsa da, vəsaitlərdən səmərəli istifadə olunmayıb, əksər hissəsi silinib. Təhsil xərclərində də buna oxşar sxemlərdən istifadə olunub. Həmçinin yol-kommunla təsərrüfatına ayrılan pulların da bələdiyyə və məriya tərəfindən mənimsənildiyinə dair Hesablama Palatasının hesabatında materiallara rast gəlmək mümkündür. Təqdim edilən bu materiallara hüquqi qiymət verilməməsi və hökumətin təkidi sayəsində həmin sahədə yoxalamaların dayandırılması isə Ermənistanda korrupsiyanın dövlət səviyyəsində dəstəkləndiyini göstərir.

Ermənistanın Helsinki Komitəsinin sədri Avetik İşxanyanın da fikirləri maraq doğurur. O, bildirib ki, əvvəlki rejimdə də korrupsiya tüğyan edirdi, indiki hakimiyyətin səyləri isə öz siyasi rəqiblərini cəzalandırmaq və onların əmlakını öz tərəfdarlarının xeyrinə yenidən bölüşdürmək üçün siyasi alətə çevrilib.

Göründüyü kimi Cənubi Qafqazın hərtərəfli saxtakar bir ölkəsi olan Ermənistanın saxtakarlıqla islahatlar adı altında yürütdüyü siyasət, o cümlədən iqtisadi tədbirlərin əsil mahiyyəti xalqı və sahibkarlığı, xarici biznes icmasını deyil, birbaşa məmur korrupsionerizminin maraqlarının qorunmasına xidmət edir.

***ELBRUS CƏFƏRLİ***

# Boliviyada dövlət çevrilişinə cəhd...



## Luis Arse ölkəsində belə bir halın təkrarlanmasına imkan verilməyəcəyini bəyan edib

*N.BAYRAMLI*

İyunun 26-da gecə saatlarında Boliviyada hərbi çevrilişə cəhd olub. Həmin gün ölkənin faktiki paytaxtı La-Pas şəhərində hərbçilər hökumət binasını mühasirəyə alıblar. Çevriliş cəhdinə iyunun 25-də ordu komandanı vəzifəsindən azad edilmiş general Xuan Xose Zuniqa başçılıq edib.

Boliviya prezidenti Luis Arse isə hərbçilərin hakimiyyəti ələ keçirməsinə icazə verilməyəcəyini bildirib: "Çevriliş cəhdlərinə və demokratiyamıza zərər vurmaq cəhdlərinə müqavimət göstərməkdə qəti qərarlıyıq". Ölkə rəhbəri Boliviya vətəndaşları demokratiyanı müdafiə etməyə çağırıb. Boliviya Xarici İşlər Nazirliyi isə beynəlxalq ictimaiyyəti davam edən hadisələr fonunda Prezident Arse hökumətini müdafiə etməyə səsləyib.

Lakin çevriliş cəhdi uğursuz olub, iyun 27-də səhər saatlarında çevrilişin qarşısı alınıb. Dövlət çevrilişinə rəhbərlik edən general Xuan Xose Zuniqa saxlanılıb. General Zuniqa polis əməkdaşlarının müşayiəti ilə Baş Qərargahın binasından polis maşınına mindirilərək prokurorluğa aparılıb.

Ölkənin daxili işlər naziri Karlos del Kastilyo isə dövlət çevrilişinə cəhddə 9 nəfərin yaralandığını bildirib: "Təəssüf ki, doqquz yaralı haqqında məlumatımız var. Digər xəstəxanalarda da qurbanların olub-olmadığını bilmirik".

Çevriliş cəhdinin qarşısının alınmasından sonra xalqa müraciət edən Prezident Luis Arse bildirib ki, ölkəsində əsla belə bir halın təkrarlanmasına imkan verilməyəcək: "Bütün çevriliş cəhdlərini məğlub edəcəyik. Onların etdikləri ölkənin beynəlxalq imicinə xələl gətirməkdir. Bu gün beynəlxalq ictimaiyyət və Boliviya xalqı dövlət çevrilişinə cəhdin şahidi oldu. Biz komandamız və nazirlərimizlə demokratiyamızı təhdid edən çevriliş cəhdlərinə qarşı mübarizə aparmaq üçün buradayıq. Heç kim qazandığımız demokratiyanı əlimizdən ala bilməz. Boliviya xalqı bizim demokratiya çağırışımızı cavabsız qoymadı və birlikdə buna qarşı çıxdı. Biz imkan verə bilmərik ki, belə çevriliş cəhdləri bir daha baş versin. Yaşasın demokratiya, rədd olsun çevrilişlər!".

Boliviya ordusunun yeni Baş Qərargah rəisi təyin olunan Sançes isə küçə və meydanlarda olan bütün hərbçilərə öz hərbi hissələrinə qayıtmalarını əmr edib: "Biz bu gün böyük bir məsuliyyət altına girdik. Belə bir vəzifəyə layiq görülməkdən qürur duyuram. Bizə güvəndikləri üçün prezidentə və müdafiə nazirinə təşəkkür edirik. Heç kimin görmədiyi görüntülərlə qarşılaşırıq. Ordunun yeni komandanı olaraq, hər hansı bir çevrilişə cəhdə imkan verməyəcəyimizi hər kəsin bilməsini istəyirəm".

# Fransa da "çıxır" - Aİ dağılır...

## Le Penin qələbəsi Avropada siyasi mənzərəni dəyişə bilər

"Köhnə qitə" yeni problemlər yaşamaqdadır. Özünün iqtisadi-siyasi hegemoniyasını tədricən itirməkdə olan Avropanın monolit "mənzərəsi" də dağılmaq üzrədir. Belə ki, Böyük Britaniyanın ayrılığının ağırlığını hələ də tam qaldıra bilməyən Avropa İttifaqı Fransanı da itirə bilər. İyunun 30-da və iyulun 7-də baş tutacaq seçkilərdə ortaya çıxacaq nəticə məhz bu istiqamətə yönəlib. Bununla bağlı Aİ-nin BREKSİT üzrə müzakirəçisi Mişel Barnye öz fikirlərini bölüşüb. O bildirib ki, Fransa prezidenti Emmanuel Makronun ölkə parlamentinin vaxtından əvvəl buraxılması və erkən seçkilərin keçirilməsi ilə bağlı qərarı Fransanın Avropa İttifaqından çıxmasına səbəb ola bilər. Qeyd edib ki, Makronun rəhbərlik etdiyi İntibah partiyasının seçkilərdə sağçı Milli Birlik üzərində qələbə qazanacağına ümidlər çox azdır. Diplomatın fikrincə, sorğularda lider olan Milli Birliyin liderləri respublikanın Avropa İttifaqından çıxmasını istəyə bilərlər. "Mən düşünmürəm ki, Le Pen və ya Bardella hələ də anti-Avropa baxışlarına sadiqdirlər", - deyə o bəyan edib.

### Fransada real vəziyyət - Milli Birlik öndədir...

Xatırladaq ki, iyunun əvvəlində baş tutmuş və BREKSİT-dən sonra Avropa Parlamentinə ilk seçkilər kimi tarixə düşən səsvermədə maraqlı nəticələr əldə edilmişdi. Xüsusilə Fransada ortaya çıxan rəqəmlər xalqın Makron hakimiyyətinə etimad göstərmədiyini sübuta yetirmişdi. Belə ki, son illərdə seçicilərin mühüm etimadını qazanan Milli Birlik partiyası Avropa Parlamentinə (AP) keçirilən seçkilərdə 31,8 faiz səs toplayıb. Prezident Makronun yaratdığı, hazırda isə Stefan Sejurnenin rəhbərlik etdiyi İntibah Partiyası isə seçicilərin cəmi 15,2 faizi dəstəkləyib. Xatırladaq ki, partiya 2016-cı ildə təsis edilmişdi. Sosial liberal xəttə üstünlük verən təşkilat ötən parlament seçkilərində mühüm üstünlük qazanmışdı.

Sağ millətçi ideologiyaya söykənən Milli Birlik Partiyasının siyasi yüksəlişi artıq bir neçə ildir ki, müşahidə edilməkdədir. Aİ rəsmisi Mişel Barnyenin fikirlərində isə həqiqət yükü çoxdur - sonuncu dəfə 2022-ci ilin iyununda Fransada keçirilən parlament seçkilərində rəsmi nəticəyə görə hakim koalisiya Milli Assambleyada 225 yer qazanmışdı. Avropa Parlamentinə seçkilərin qalibi olan Milli Birlik Partiyası isə 89 yerə sahib olmuşdu. Bu, partiyanın tarixində ən yüksək göstərici sayılırdı - 2017-ci ildə keçirilən seçkilərdə partiya cəmisi 20 yer qazana bilmişdi. Beləliklə, göstəricilərini ildən-ilə yaxşılaşdıran Le Penin partiyasının bu dəfə iqtidar olma şansı yüksək dəyərləndirilir.

### Aİ imicini itirib...

Bu, əslində, Makron siyasətinin iflası ilə yanaşı Avropa cəmiyyətinin Aİ-nin perspektivinə inanmamasının növbəti göstəricisidir. İllərdir ki, verdiyi qərarlarda, qəbul etdiyi qətnamələrdə ikili standartlara, qeyri-demokratik nüanslara yer ayıran Aİ və onun strukturları bütün dövlətlərdə özünə qarşı açıq inamsızlıq mühiti formalaşdırıb. Digər tərəfdən, bu amil Aİ-nin imicini yerlə-yeksan edib - hətta bəzi Aİ üzvü ölkələrinin liderləri qurumun korporativ maraqlara əsaslanan qərarlar verməsi faktını etiraf belə ediblər. Üstəgəl, son dövrlərdə bu qurumda ard-arda yaşanan korrupsiya və rüşvət faktları Aİ üçün əsl "dalan" effekti formalaşdırıb. Qurum artıq nəinki qərarverici, hətta "tövsiyyəverici" funksionallığını belə itirib.

Aİ üzvü olan əksər ölkələrin hakimiyyətlərinin Rusiya-Ukrayna müharibəsində tutduğu birtərəfli mövqe də yerli xalqlar tərəfindən birmənalı qarşılanmayıb. O cümlədən, Fransa xalqının Makron iqtidarının apardığı birtərəfli siyasəti bəyənməməsi faktlarla ortadadır. Ölkəsinin enerji təhlükəsizliyi məsələsini təhdid qarşısında qoyan, iqtisadi geriləməyə sövq edən, yersiz çıxışlarla Avropada yeni müharibə çağırışları edən Makron bu yolla özünü Aİ-nin ən ön sıralarına daşımaq istəsə də, oxu "daşa dəydi". Son seçkidə uğradığı məğlubiyyət onu pis vəziyyətdə qoyub. Nəinki Avropaya, eləcə də digər coğrafiyalara münasibətdə qeyri-adekvat mövqeyi ilə seçilən Makron və onun "iqtidar komandası" artıq səhvlərinin aqibətini yaşamağa başlayıb...



### Le Pen Aİ-ni və Makronu ifşa edir

Le Pen isə Makrondan fərqli olaraq Mərkəzi Avropada baş verənlərə ölkəsinin maraqları müstəvisində yanaşacağını vəd edir. Anti-Rusiya əhvalından uzaq olan Le Pen əksinə, Moskva ilə münasibətlərin normallaşdırılmasının tərəfdarıdır. Çox güman ki, onun Aİ ilə ortaq baxışlara malik olmamasının bir səbəbi də buradadır - millətçi kəsimin lideri "Avropa maraqları" maskası arxasında gizlədilən "Qərb planlarını" qəbul etmir. Bu faktları açıq şəkildə sadalayan Le Pen beləliklə kontingent üzrə "sevilməyən" şəxs kimi şöhrət tapıb. Yeni siyasi qüvvələr həm Aİ-nin, həm də Makronun yarıtmaz siyasəti üzərindən rahat təbliğat qura bilirlər. Bu baxımdan qarşıdakı seçkilərdə onların asan şəkildə qələbə qazanacağına ümid böyükdür...

***SADİQ***

# Bir eksperimentin tarixçəsi:

## meymun niyə insana çevrilmədi?

*Murad Köhnəqala*

Elm tarixi qeyri-etik sayılan, tətbiqinə icazə verilməyən eksperimentlərlə, gizli tədqiqatlarla zəngindir. Canlılar üzərində aparılan təcrübələr nə qədər antihumanist görünsə də, təəssüf ki, bəzən elmin irəliləyişi üçün bu qəbildən əməliyyatlar qaçılmaz olur.

Tənqidlərdən və cəzadan çəkinmədən riskli təcrübəyə qərar verən elm adamlarından biri də Uintrop Kelloq idi. Kelloqun əməli ağlasığmaz olub. Bu yazı doğma övladını təcrübə subyekti kimi istifadə edən ata haqqındadır.



**Kelloqun əcaib eksperimenti**

Uintrop Kelloq Kolumbiya Universitetində psixologiya elmləri üzrə magistr dərəcəsi almışdı. Alim ona böyük şöhrət və professor titulu qazandıracaq yeni dissertasiya mövzusu axtarırdı. Belə bir mövzu isə cəngəllikdə heyvanlarla bərabər böyüyən "Mauqli" uşaqlar idi. Psixoloq öz müşahidələrinə əsasən belə qənaətə gəlmişdi ki, ətraf mühit bir cür uşaqlarda düşüncə tərzini kökündən dəyişərək insanlıq izlərini silir. Yəni inkişaf dövrlərini vəhşi təbiətdə keçirən həmin uşaqlar insan cəmiyyətinə xas öyrənmək və sosiallaşmaq qabiliyyətini itirirlər.

Kelloqun irəli sürdüyü bu iddia onun həmkarları arasında qızğın müzakirələrə səbəb olub. Onların çoxu genetik anormallığı olmayan və ya demensiya ilə doğulmayan insanların heyvanlar aləminin şərtlərinə uyğunlaşmadığı fikrini müdafiə edirdi. Kelloq isə onlarla razılaşmır, bunun əksini sübut etməyə çalışırdı. Lakin öz iddiasını isbatlamaq üçün onun irəli sürdüyü nəzəriyyə yetərli deyildi. Buna görə o, təcrübəyə ehtiyac olduğunu anladı və riskli, qorxunc bir eksperiment həyata keçirməli oldu.

Əlbəttə, eksperiment xatirinə hansısa uşağı cəngəllikdə yaşamağa göndərmək mümkün deyildi. Ona görə Kelloq bunun əksini həyata keçirmək qərarına gəldi. Alim heyvanların içindən bir balanı öz ailəsinin içinə gətirərək ona insani davranışlar aşılamaq fikrinə düşdü. Təcrübənin baş tutması üçün bir antropoid - insanabənzər meymun, daha doğrusu, onun yeni doğulmuş körpəsi lazım idi.

**Övladını təcrübə subyekti edən ata**

Kelloqun planına görə, "obyekt" yetkin insanların fiziki-psixoloji təsiri altında, adi insan övladı kimi böyüməli idi. Bu işin öhdəsindən alimin özündən və ona bütün işlərində dəstək olan həyat yoldaşı Luelladan daha yaxşı kim gələ bilərdi? Ən əsası, ailədə cütlüyün dünyaya yeni gəlmiş bir körpəsi də böyüyürdü. Kelloqlar ailəsi meymun balası ilə körpə Donaldın birlikdə böyüməsini, onların eyni valideyndən tərbiyə almasını təcrübədən keçirəcəkdilər.

Alim meymunu insana çevirmək kimi bir məqsədinin olmadığını dəfələrlə bildirmişdi. O, sadəcə olaraq, insanlar arasında yaşayan meymunun onların xüsusiyyətlərini mənimsəməyə və heyvani instinktlərini boğmağa qadir olub-olmadığını yoxlamaq istəyirdi.

Uintrop Kelloq və Luellanın ilk vaxtlarda eksperimentin bəzi detalları ilə bağlı fikir ayrılığı yarandı. Ancaq onlar proses boyu tədricən eyni fikirlərə gələ bildilər. Daha sonra yeni bir problem ortaya çıxdı - məlum oldu ki, uyğun meymun növünü tapmaq o qədər də asan deyil.

Onlar hətta oranqutanların məskəni Sumatraya ekspedisiyaya getməyi düşünsələr də, səfər üçün kifayət qədər vəsait toplaya bilməmişdilər. Cütlük sonradan zooloji cəmiyyətlər vasitəsilə bir meymunu "icarəyə götürməyə" çalışdı. Lakin ər-arvadın istəyi hər yerdə rədd edilirdi.

Nəhayət, onlar Yel Universitetində antropoidlərin yetişdirilməsi üzrə eksperimental stansiya vasitəsilə bir dişi şimpanze balası əldə edə bildilər. Cütlük bu layihə üçün Nyu-Yorkun Sosial Elmlər Araşdırma Şurasından lazımi maliyyə vəsaiti də aldı. Beləliklə, qeyri-adi eksperimentin icrasına başlandı. 26 iyun 1931-ci ildə yeddi aylıq şimpanze balası Qua Kelloqlar ailəsinə üzv oldu. Həmin ərəfədə balaca Donald Kelloqun bir yaşı hələ tamam olmamışdı.

**Meymunu və insanı tərbiyələndirmək**

Kelloqların oğlu balaca şimpanze ilə eyni şəraitdə qardaş-bacı kimi yaşayırdı. Onlar eyni çarpayılarda yatır, eyni yeməkləri yeyir, oxşar paltarlar geyinir, hətta eyni oyunları oynayırdılar. Ana oğlu Donalda göstərdiyi bütün davranışları - yuyundurmaq, tərifləmək, cəzalandırmaq və s. kimi hərəkətləri meymun Quaya da tətbiq edirdi. Uintrop isə oğlunun və şimpanzenin davranışlarını, intellekt göstəricilərini qiymətləndirmək üçün vaxtaşırı sınaqlar keçirirdi.

Körpə qız Qua yeni mühitə tez öyrəşmişdi. O, yumşaq döşəkdə, təmiz çarpayıda sevinclə yuxuya gedirdi. İlk vaxtlar şimpanze özünü çox yaxşı aparırdı - bir çox göstəricilərə görə o, hətta Donalddan da bacarıqlı görünürdü. Qua fiziki cəhətdən Donalddan daha güclü idi, manelərin üstündən asanca tullanır, qapıları açır, əlində qaşıq və stəkanla dolu suyu rahat tuta bilirdi. Onun əksinə olaraq Donald hər şeyi dağıdır, əlindən salırdı.



Kelloqların müşahidələri nəticəsində aydın oldu ki, Qua insan cəmiyyətinə onların uşağından daha tez uyğunlaşır. Meymun balası artıq öz ehtiyacları barədə öncədən xəbərdarlıq edirdi. 7,5 aylıq olanda meymun "olmaz" sözünün mənasını tam dərk etdi. Müəyyən vaxtdan sonra o, "öpmək" və "yuxarı qalxmağın" nə demək olduğunu dəqiqliyi ilə mənimsədi. Qua sorğulara ən azı yeddi fərqli cavab verirdi, Donald isə həmin vaxtda yalnız iki cavab verməyi bacarırdı.

**Meymun insana çevrilmədi, lakin....**

Bir neçə ay ərzində Qua inanılmaz nəticələr göstərdi. Alimlər eksperimentlərin baş tutduğuna artıq inanırdılar. Lakin gözlənilmədən hər şey kəskin şəkildə dəyişdi. Meymun və Donald bir yaşına çatdıqdan sonra onların inkişafındakı fərqlər sürətlə hiss edilməyə başladı. Donald ünsiyyət və nitq qabiliyyətinə görə sözün əsl mənasında irəliləyirdi. Onun söz ehtiyatı sürətlə artdığından və inkişaf edən dil sosial bacarıqların əldə edilməsində mühüm rol oynadığından Qua oğlandan geri qalmağa başladı.

Lakin hər şey sürətlə dəyişirdi. Təcrübə başlanandan 9 ay sonra Kelloq eksperimentin nəticələrindən məyus olduğunu boynuna aldı. O, meymun balasının heç vaxt insan kimi danışa bilməyəcəyini anlasa da, onun çıxardığı səslərin bizim nitqimizi daha çox xatırladacağına ümid edirdi. Ancaq hər şey əksinə olmuşdu. Az qala beşikdən meymunla sıx təmasda olan Donald getdikcə "meymun bacısını" təqlid etməyə, onun bəzi hərəkətlərini təkrarlamağa başlayırdı. Uşağın üz ifadələri və hərəkətləri insandan daha çox meymuna bənzəməyə doğru gedərkən təcrübə məcburən dayandırıldı və Qua antropoid yetişdirmə stansiyasına qaytarılası oldu.

Kelloq öz dissertasiyasını tamamlaya bilməsə də, onun bu eksperimenti hələ də ətraf mühitin anadangəlmə instinktlərə təsir mexanizmlərinin öyrənilməsində yenilik hesab olunur. Təbii ki, bu qeyri-adi təcrübə zamanında böyük tənqidlərlə də üzləşib. Bir sıra elm adamı Donaldın sınaq subyekti kimi istifadə edilməsini pisləmiş, digərləri meymunun körpə ikən anasından və ailəsindən ayrılmasına mənfi reaksiya vermişdilər. Qua Kelloqlardan ayrıldıqdan sonra çox yaşamadı. Yaşadığı evi tərk etdikdən bir il sonra o, pnevmoniyadan öldü.

**Nəticə: gen və mühitin təsiri eynidir**

1933-cü ildə Uintrop və Louella Kelloqlar öz müşahidələrini təfərrüatlı şəkildə əks etdirən "Meymun və uşaq" adlı kitab nəşr etdirdilər. Kitab bütün təcrübənin aşağıdakı əsas nəticəsi ilə yekunlaşır:

"Hər bir fərdin xarakterinin müəyyən edilməsində irsiyyət (genetika) və ətraf mühit birlikdə fəaliyyət göstərir. Ümumilikdə, canlı orqanizmin formalaşması bu iki amilin birgə nəticəsi kimi meydana çıxır. Onlardan biri heç vaxt digəri olmadan fərdi xarakter formalaşdıra bilməz".

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Qohum evliliyinə qadağa qoyulmalıdırmı?

## Fəsadları, dünya təcrübəsi...

Adətən qüsurlu uşaqların dünyaya gəlməsində qohum evlilikləri ciddi rol oynayır. Bu, tibbi olaraq da sübut edilib. Qohum evliliyi qan, sinir-əzələ, ürək-damar sistemi və metabolik xəstəliklərə gətirib çıxarır. Araşdırmalara görə, yad evliliklərinə nisbətən qohum evliliklərində qüsurlu uşaqların doğulması ehtimalı iki dəfə çoxdur.

## Qohum evliliyinə qadağa qoyan ölkələr

Qeyd edək ki, dünya əhalisi arasında da qan qohumları arasında bağlanan nikahlar nəticəsində doğulan uşaqlarda genetik xəstəliklərin olması riski olduqca yüksəkdir. Çin, Yaponiya, ABŞ, Böyük Britaniya, İsveçrə, Türkiyə, Ukrayna, İrlandiya, Cənubi Koreya, Yeni Zelandiya, Tacikistan və.s ölkələrdə qohum evliliklərinə qadağa qoyulub.

Ölkəmizdə qohum evliliyinə yanaşma iki cürdür. Bunu həm dəstəkləyənlər var, həm də qınayanlar. Hətta rəsmi qurumlar, həkimlər, millət vəkilləri qohum evliliklərinin qadağan olunması üçün çağırışlar edirlər.

## Razı olanlar da var, olmayanlar da...

Xatırladaq ki, bu günlərdə Ailə Məcəlləsinə dəyişiklik layihəsi parlamentin iclasında müzakirəyə çıxarılıb. Ölkəmizdə əmi, xala, bibi və dayı uşaqlarının evliliyini qadağan edən layihə I oxunuşda təsdiqlənib. Ancaq bu məsələ cəmiyyətdə geniş müzakirələrə səbəb olub. Bəziləri bunu insan haqlarının pozulması kimi qiymətləndirir. Bəziləri isə qərarın verilməsi üçün hətta gecikmiş olduğumuzu hesab edir.

## Sağlam gələcəyimiz müdafiə olunmalıdır

Mövzu ilə bağlı “Yeni Azərbaycan”a danışan sosioloq Sahib Altayın sözlərinə görə, qohum evliliyi ilə bağlı məsələdə iki məqam önə çəkilir: insan haqları, insanların evlənmək üçün seçim etmək imkanlarının məhdudlaşdırılması və dövlətin genefond sağlamlığı naminə atdığı addım: “Əgər elmi əsaslarla sübut olunursa, ÜST və beynəlxalq araşdırma resursları təsdiq edirsə ki, qohum evlilikləri sağlam gələcəyi təhdid edir, deməli, burada insanların seçim azadlığından çox, dövlətin sağlam gələcəklə bağlı narahatlığı müdafiə olunmalıdır. Söhbət cəmiyyətin sağlam gələcəyindən gedir. Çünki irsi qan xəstəlikləri, sağlamlıq imkanları məhdud insanların böyük əksəriyyəti qohum evlilikləri ilə dünyaya gələn uşaqlar arasında olub. Dəqiq müəyyənləşdirməliyik ki, hansı qohumlar arasında evlilik olar, hansında olmaz. O qohumlar arasında nikah münasibətlərinə icazə verilməlidir ki, sağlam gələcəyi təhdid etməsin”.




Sosioloqun sözlərinə görə, Avropa ölkələrində, ABŞ-nin 24-dən çox ştatında qohum evlilikləri qadağan olunub: “Amma ABŞ-nin bir ştatında maraqlı bir təcrübə var. İnsanların nəsil vermə yaşı atlatdıqdan sonra, yəni nəsilvermə qabiliyyəti aradan götürüldükdən sonra qohum evliliklərinə icazə verilir. Misal üçün, bəlli bir yaş dövründə insanın nəsilvermə qabiliyyəti azalır. Belə qanunlar hazırlayaraq istisnalara yol verilir.

İngiltərədə əhalinin 0,5 faizi, Niderlandda 0,3 faizi öz qohumu ilə evlənir. Dünyanın ən xoşbəxt millətlərindən biri sayılan isveçlilərdə isə bu rəqəm 0,9 faizdir. Rəqəmlərin xeyli yüksək olduğu ölkələr də var. Almaniyada yəhudilərin 35,8 faizi, Küveytdə

## Çoxdan qadağan etmək lazım idi...

Sosioloq öz müşahidələrindən danışaraq əlavə edib ki, valideynlər bilə-bilə ki, övladı xəstə doğulur, yenə də qohum evliliyinə razılaşırlar: “Ailə tanıyıram ki, qohum evliliyindən üç uşaqları olub, 3-ü də xəstədir. Qohumu ilə ailə quran şəxslərin dünyaya gələn övladları xəstə olsa da, növbəti dəfə uşaq dünyaya gətirirlər.

Ona görə də Ailə Məcəlləsinə edilən dəyişikliyi və qohum evliliyi ilə bağlı olan qadağanı alqışlayıram. Belə evliliyi çoxdan qadağan etmək lazım idi”.

## Dünya təcrübəsi nə deyir?

54,3 faizi öz qohumu ilə evlənir. Yəni təxminən əhalinin yarıdan çoxu.

Ölkəmizdə qohum evlilikləri nəticəsində talassemiya xəstəliyi və digər irsi qan xəstəlikləri üstünlük təşkil edir. Burada rasional qərarlara üstünlük verilməlidir, nəinki sosial şəbəkə istifadəçilərinin diletant yanaşmasına”.

## Uşaq yaşlarından təbliğat aparılmalıdır...

S.Altay qeyd edib ki, qohum evliliyin təhlükəsinə görə hamilə qadınlar uşaq doğulana qədər həyəcan içində olur: “Hamı bilir ki, qohum evliliklərindən uşaq xəstə doğula bilər. Ona görə də bətnində uşaq gəzdirən qadın 9 ay boyunca gərginlik içində yaşayır. Bunun özü də uşağa zərbə vura bilər.

Ona görə də qohum evliliklərinin təhlükəli olduğunu qız və oğlanlara uşaq yaşlarında təbliğ etmək lazımdır ki, onların bir-birilərinə qarşı sevgi hissləri formalaşmasın”.

*Yeganə BAYRAMOVA*

# İdman

## “Asiya uşaqları” Oyunlarının təntənəli açılış mərasimi keçirilib

Rusiya Federasiyasının Yakutsk şəhərində “Asiya uşaqları” beynəlxalq idman Oyunlarının təntənəli açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, mərasim şəhərin “Tuymaada” stadionunda keçirilib.

Üç saat davam edən proqramda nümayəndə heyətlərinin və iştirakçı ölkələrin bayraqlarının paradı, vokal və xoreoqrafik çıxışlar, eləcə də Yakutiyanın tanınmış incəsənət ustalarının konserti olub.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin adından yarış iştirakçılarını Rusiyanın idman naziri Mixail Deqtyarev salamlayıb. Mərasimdə Rusiya Olimpiya Komitəsinin prezidenti Stanislav Pozdnyakov və “Asiya uşaqları” Beynəlxalq İdman Oyunlarının Təşkilat komitəsinin prezidenti Vladimir Maksimov da iştirak ediblər.

Sonra Rusiyanın 24 ölkəsindən və beş regionundan olan idmançıların, o cümlədən “Asiya uşaqları” Beynəlxalq İdman Oyunlarının hakimlərinin iştirakı ilə parad keçirilib.

Paradın ardından “Asiya uşaqları” VIII Beynəlxalq İdman Oyunlarının məşəli alovlandırılıb.

Açılış mərasimi bədii hissə ilə davam edib.

İyulun 7-dək davam edəcək Oyunlarda gənc idmançılar 24 idman növü üzrə 239 medal dəsti uğrunda mübarizə aparacaqlar. Tədbirdə 24 ölkədən, o cümlədən Rusiyadan beş komandanın idmançıları iştirak edirlər. Azərbaycan bu yarışda 16 idman növü üzrə 80 idmançı ilə təmsil olunur.




Qeyd edək ki, Azərbaycan taekvondoçuları Rusiyanın Yakutsk şəhərində keçirilən “Asiya uşaqları” VIII Beynəlxalq İdman Oyunlarında 4 medal qazanıblar.

48 kiloqram çəki dərəcəsində mübarizə aparan İlyas Hətəmli 1/4 finalda Rusiya təmsilçisi Yeqor Jirkovu məğlub edib. Yarımfinalda tailandlı Puriç Madsamanı üstələyən idmançımız həlledici görüşdə özbəkistanlı Behruz Salimova uduzaraq gümüş medalla kifayətlənib.

55 kiloqramda yer alan Ziya Həsənli ilk görüşündə rusiyalı Lvov Nurgunu yenərək yarımfinala adlayıb. Finala gedən yolda belaruslu Stepan Hoidzaya məğlub olan taekvondoçumuz bürünc medal uğrunda qarşılaşmada Nurislam Yunusovdan güclü olub.

63 kiloqram çəki dərəcəsində mübarizə aparan Vasif Səlimov 1/4 finalda rusiyalı Andrey Artemenkoya, yarımfinalda isə qazaxıstanlı Beket Bolatulına qalib gəlib. Həlledici döyüşdə özbəkistanlı Cahongir Sırikbayevdən üstün olan Azərbaycan təmsilçisi qızıl medala sahib çıxıb.

Qız taekvondoçular arasında isə 63 kiloqram çəki dərəcəsində yarışan Fatimə Həsənova özbəkistanlı Zilola Mamirova ilə mübarizədən qalib ayrılaraq yarışda 3-cü yeri tutub.




## 700-dən çox gənc doğru yolu seçdi!

***“Azercell” və Cüdo Federasiyasının Doğru yol budur” layihəsi öz töhfəsini verir!***

“Azercell Telekom” MMC-nin Azərbaycan Cüdo Federasiyası ilə birgə əməkdaşlıqda həyata keçirdiyi “Doğru yol budur” sosial kampaniyasına qoşulanların sayı hər gün artır. Artıq Azərbaycanın müxtəlif bölgələrindən 700-dən çox şəxs bu çağırışa cavab verərək mütəmadi məşqlərdə iştirak edir. Layihə cəmiyyətimizdə, xüsusilə də gənclər arasında narkomaniyanın fəsadlarına diqqət çəkməklə yanaşı, sağlam həyat tərzinin təbliğatına və idmana olan marağın artırılmasına yönəlib.

Qeyd edək ki, “Doğru yol budur” kampaniyası çərçivəsində Cüdo Federasiyasının məktəbləri və bölmələri fəaliyyət göstərən bölgələrdə qeydiyyatdan keçən gənclərə 1 ay müddətində ödənişsiz cüdo ilə məşğul olmaq imkanı verilib. Layihə əsnasında məşhur rep ifaçısı Orxan Zeynallı ilə qısametrajlı film çəkilib, yeniyetmə və gənclər arasında maarifləndirmə işləri aparılıb. Paytaxt və Azərbaycanın bir çox bölgələrində, xüsusən də məktəblərin ətrafında və gənclərin daha çox toplandığı yerlərdə eyni konsepsiyanı davam etdirən posterlər yerləşdirilib.

Xatırladaq ki, 26 iyun BMT tərəfindən Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü elan edilib və bu gün ictimaiyyətin diqqətini narkomaniya problemlərinə yönəltməyi hədəfləyib. “Azercell Telekom” yeniyetmə və gəncləri zərərli vərdişlərdən uzaq durmağa, sağlam həyat tərzi sürərək asudə vaxtlarını səmərəli keçirməyə çağırır!

## Azərbaycan güləş millisi komanda hesabında Avropa çempionu olub



Azərbaycanın daha bir güləşçisi Serbiyanın Novi Sad şəhərində keçirilən 17 yaşlılar arasında Avropa çempionatında birinci olub.

Azərbaycan Güləş Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, yarışın üçüncü günündə yunan-Roma güləşçilərindən Səid Paşayev (92 kiloqram) serbiyalı Stevan Kojiçə elə ilk hissədən üstünlük quraraq (8:0) vaxtından əvvəl qələbəni təmin edib və baş mükafata yiyələnib.

Millinin 10 üzvündən 9-u medal (3 qızıl, 2 gümüş, 4 bürünc) qazanıb.

Bununla da Azərbaycan 183 xalla komanda hesabında Avropa çempionu olub Yığma 2-ci pillədə yer alan Ermənistanı 51 xal qabaqlayıb. Ukrayna 121 xalla üçüncü yeri tutub.

Beləliklə, U-17 yunan-Roma güləşi üzrə yığmamız 3-cü dəfə (2021, 2022, 2024) Avropanın ən güclü komandası olub.

Bu yarışda millimiz medalların sayına və toplanan xallara görə də yeni rekorda imza atıb.

Xatırladaq ki, millinin heyətində Səid Paşayevlə yanaşı, Turan Daşdəmirov (51 kiloqram), Ayxan Cavadov (60 kiloqram) v Avropa çempionu olub. Əmrah Əmrahovla (48 kiloqram) Yusif Əhmədli (71 kiloqram) gümüş, Nicat İsgəndərli (45 kiloqram), Əli Nəzərov (55 kiloqram), Orxan Hacıyev (80 kiloqram) və Mikayıl İsmayılov bürünc medal qazanıb.

## “Neftçi” və “Sabah” klublarının loqoları yenilənib

“Neftçi” və “Sabah” klublarının loqoları yenilənib.

AZƏRTAC xəbər verir ki, “Neftçi”nin ilk emblemindən ilhamlanaraq yaradılan və dövrün tələblərinə uyğun müasirləşdirilən yeni loqo ənənəvi ağ-qara fonda hazırlanıb.

Loqoda ilk emblemin konturlarından, klubun adının baş hərfi olan “N” hərfi və neft buruqlarından istifadə olunub. Bununla da klubun köklərinə və dəyərlərinə sadiqlik nümayiş etdirilib.







Loqo ilə yanaşı, klubun yeni sloqanı da hazırlanıb. “İllərin “Neftçi”si, gələcək nəsillərin “Neftçi”si!” adlanan sloqan “ağ-qaralar”ın “xalqın komandası” adlandırılmasını və Azərbaycanın ən köklü klubu olmasını özündə birləşdirir.

“Sabah”ın yeni loqosunda isə top elementi klubun simvolu olan bayquşla əvəz olunub. Əvvəlki loqoda istifadə olunmuş kənar xətlərin sayı azaldılaraq, loqo maksimum sadələşdirilib. Bundan sonra “Sabah” adı altında fəaliyyət göstərən bütün klublar vahid loqo ilə təmsil olunacaq.

Qeyd edək ki, loqoda yer alan bayquş müdriklik və intellekti simvolizə edir. Günəş - yeni gün, yeni ümidlər və gələcəyin nişanıdır. Qalxan - cəsarət, inam və məğlubedilməzlik simvoludur. Çəhrayı rəng isə Masazır gölünün rəngini özündə əks etdirir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5746**
**Sifariş: 1432**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Nardar BAYRAMLI